**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**NİZAMİ GƏNCƏVİ adına ƏDƏBİYYAT İNSTİTUTU**

*Əlyazması hüququnda*

**ELNARƏ SEYDULLA qızı AKİMOVA**

# MÜSTƏQİLLİK DÖVRÜ AZƏRBAYCAN POEZİYASI MÜASİR ƏDƏBİ TƏMAYÜLLƏR KONTEKSTİNDƏ

5716.01 – Azərbaycan ədəbiyyatı

Filologiya üzrə elmlər doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI-2017**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Teymur Həşim oğlu Kərimov,**
akademik, filologiya üzrə elmlər doktoru, professor

**Rəsmi opponentlər:** **Nizami Qulu oğlu Cəfərov,**
akademik, filologiya üzrə elmlər doktoru, professor

**Şirindil Həsən oğlu Alışanov,**
filologiya üzrə elmlər doktoru, professor

**Paşa Əli oğlu Kərimov,**
filologiya üzrə elmlər doktoru

**Aparıcı müəssisə:** Bakı Dövlət Universitetinin Azərbaycan ədəbiyyatı tarixi kafedrası

Müdafiə____ _________ 2017-ci il saat ____ -da Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun nəzdində filologiya üzrə elmlər doktoru və filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.01.131 – Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Az-1143, Bakı, H.Cavid prospekti, 115, V mərtəbə, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, Elektron akt zalı, IV mərtəbə.

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat ____ ___________ 2017-ci ildə göndərilmişdir.

Dissertasiya Şurasının
Elmi katibi: **İsmixan Məhəmməd oğlu Osmanlı,**
filologiya üzrə fəlsəfə doktoru

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Müstəqillik dövrü Azərbaycan poeziyasını müasir ədəbi təmayüllər kontekstindən araşdırmaq zamanın özünün irəli çəkdiyi, araşdırmağı zəruri etdiyi mövzudur. Bu dövr tarixi taleyimizdə müstəqillik nailiyyətimizi əldə etdiyimiz zaman vahidi kimi səciyyələnir. Eyni zamanda üzləşdiyimiz Qarabağ problemi, yaşadığımız müharibə acıları çağın insanına, sənətə təsir edən başlıca nəsnələr olmuşdur. Bütün sahələr kimi, milli poeziyamız da bu dönəmdə iki hissin təsiri altında öz varlığını davam etdirmiş, bütün qarışıq və fəci proseslər içində mövzu və forma axtarışları sərgiləməyə nail olmuşdur.

Müstəqillik illərindən başlayaraq Azərbaycan ədəbiyyatında, eyni zamanda da poeziyasında meydana çıxan bir sıra tendensiyalar, mövzu, problematika dəyişikliyi, poetik axtarışlar sahəsində əldə edilən yeni nəticələr indiyə qədər bir sıra elmi işlərin, monoqrafiyaların mövzusuna çevrilmişdir. Bu elmi əsərlərdə başlıca olaraq Qarabağ problemi, şəhidlik mövzusu, istiqlal, hürr duyğuları başlıca problem olaraq araşdırılmış, poeziyadakı bütün axtarış və düşüncə əzmi bu problemlərin təhlilinə tabe tutulmuşdur. 1990-cı illərdən başlayaraq dünya ədəbi-fəlsəfi cərəyanlarının poeziyaya axını güclənmişdir. Bu isə öz növbəsində poeziyada "dünya təcrübəsi"ni izləməyi labüdləşdirir, onu dünyada gedən proseslərin bir hissəsi kimi araşdırmağı zəruri edir. Mövzu ilə bağlı aparılan tədqiqatlarda bu amil o qədər də dərindən incələnməmiş, yaxud da milli poeziyamızın bəlli bir dövrünü təhlilə cəlb edərək sistemli araşdırmadan kənar tutulmuşdur. Dissertasiya yaranmış boşluğu doldurmaq yönündə mükəmməl bir əsər olmaqla yeni addımdır. Müstəqillik illərindən başlayaraq poeziyada güclənən ədəbi təmayüllərə milli poeziyanın inkişaf qanunauyğunluğu kontekstindən nəzər yetirilmiş, orta əsrlər dövründə mövcud olmuş dini təmayüllərdən başlayaraq XX əsrin birinci yarısının romantik-fəlsəfi şeiri, bütöv sovet dövrü Azərbaycan poeziyasında mövcud təmayüllər, sərbəst şeir axtarışları, modernistik cəhdlər, 60-80-ci illərin dekadans ritminə köklənən milli şeiri geniş araşdırmanın predmetinə çevrilmiş, milli müstəqillik dövrünün poeziyası yalnız dünya proseslərinin bir təzahürü kimi deyil, həmçinin poeziyanın keçib gəldiyi əsrlərin atmosferi məcrasında təhlil olunmuşdur. Çünki poeziyanın keçib gəldiyi yolu izləmədən çağdaş poeziyanın ümumi hərəkət dinamikasını, inkişaf mənzərəsini və bu mənzərənin meydana çıxartdığı xarakterik xüsusiyyətləri meydana çıxartmaq mümkün olmur. Mövzunun başlıca aktuallığı bu amillə izah olunmalıdır. Digər vacib tərəf dövrün özünün yeni olması, ədəbiyyata,

poeziyaya baxış parametrlərinin dəyişilməsi, yeni bədii-estetik qanunauyğunluqların prosesə yeriməsi və bütün bunların poetik mətnlər vasitəsilə sərgilənməsidir ki, disertasiya bütün bu yenilikləri, təbəddülatları üzə çıxarmaq baxımından zəngin material verir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini 90-cı illərdə – müstəqillik dövründə yaranan poetik mətnlər, predmetini isə həmin mətnlərin qarşıya qoyulmuş məqsəd və vəzifələrə uyğun tədqiq və təhlili təşkil edir. Bu mətnlər iki predmet istiqamətindən öyrənilmişdir:

– 90-cı illərdən sonra yaranan poeziyanın, ondakı üslubi çalarların, forma-məzmun axtarışlarının, həmçinin ədəbi təmayülləri milli poeziyanın özünün inkişaf qanunauyğunluğu kontekstindən aşkara çıxarmaq

– Eləcə də 90-cı illərdə qabaran problemləri, şeirdəki tənəzzül əhvalını, dərinləşən çöküş fəlsəfəsini, müxtəlif ədəbi təmayülləri - çağdaşlaşma meyillərini dünya prosesləri fonunda izləmək.

Bu mənada tədqiqatda yalnız müstəqillik dövrü poeziyasına deyil, müxtəlif onillərin poetik mətnlərinə də nüfuz edilmişdir. Yeni dövr poeziyasının bütöv, mükəmməl və mütəşəkkil görünən panoramını yaratmaq ona sistemli baxışı zəruri edir.

**Mövzunun tədqiq səviyyəsi.** Bu vaxta qədər Azərbaycan poeziyası müxtəlif aspektlərdən öyrənilmiş, ona dair problemlər ədəbi-nəzəri fikrin, milli ədəbiyyatşünaslığın diqqət mərkəzində olmuşdur. Poeziyamızın problemləri haqda milli ədəbiyyatşünaslığımızın bütün peşəkar simaları fikir söyləmiş, onun ayrı-ayrı yaradıcılıq problemlərini işıqlandırmağa çalışmışlar. Bu sahədə Y.Qarayev, B.Nəbiyev, Ş.Salmanov, İ.Həbibbəyli, Ə.Ağayev, A.Zeynallı, A.Abdullazadə, Ş.Alışanlı, R.Əliyev, V.Yusifli, T.Əlişanoğlu, Q.Bayramov, Ə.Əsgərli, S.Məmmədova, N.Cabbarlı və başqalarının elmi əsərləri diqqətəlayiqdir. Mərhum ədəbiyyatşünas Ş.Salmanovun "Azərbaycan sovet şeirinin ənənə və novatorluq problemi (1920-1932)" (Bakı, Elm, 1980) mövzusunda monoqrafiyası araşdırdığı sovet dövrü poeziyasının elmi-nəzəri inkişaf panoramını əks etdirməklə yanaşı, eyni zamanda ədəbi epoxanın yeni problematik hüdudlarda tədqiqinə yol açır. Müstəqillik dövrü poeziyasında üzə çıxan təmayüllərin bəzi təzahürlərinin sovet dövrü ədəbiyyatında da mövcudluğu və ona qarşı ədəbi-tənqidin mübarizə üsulları ilə Ş.Salmanovun sözü gedən əsərində tanış olmaq mümkündür. Milli müstəqilliyimizi qazandığımız 1990-cı illərdən başlayaraq poeziya problemlərinə dair tədqiqatların, elmi nəşrlərin, dissertasiya və elmi məqalələrin sayı artmışdır. Bu dövrdə aparılan tədqiqatlar iki istiqamətə haçalanmışdır. Sovet imperiyasının süqutundan bütün humanitar sahələrlə, eləcə də poeziya ilə bağlı problemlər, dövrün

ziddiyyətindən doğan qarışıq hallar meydana çıxmışdır ki, bir sıra tədqiqatlar obyektivi həmin zamana tuşlayaraq milli şeirin inkişaf qanunauyğunluğuna nəzər yetirməyə, dövrə münasibətdə obyektiv-elmi baxış formalaşdırmağı məqsədə çevirmişlər. İsa Həbibbəylinin "Romantik lirikanın imkanları" (Bakı:Yazıçı, 1984), B.Zaurlunun "Poeziyanın inkişaf yolları" (Bakı: Ozan, 1997), Şamil Vəliyevin "XX əsr Azərbaycan ədəbi tənqidində poeziya problemləri (1895-1917)" (Bakı: Elm, 2004), Vaqif Allahverdiyevin "Müasir Azərbaycan poeziyasının inkişaf meyilləri (1945-1965)" (Bakı: NDA, 2009), Yaşar Qasımbəylinin "Milli oyanış və özünəqayıdış lirikası (Azərbaycan və özbək altımışıncılarının yaradıcılığı əsasında)" (Bakı: Elm və təhsil, 2012), Hicran Nəsibovanın "Azərbaycan lirikasında insan konsepsiyası (1960-1980-ci illər)" (Bakı: Elm, 2013), Əlizadə Əsgərlinin "XX əsr Azərbaycan şeirinin poetikası" (Bakı: Apostroff, 2014) kimi tədqiqatlarında araşdırma predmetinə çevrilən ayrı-ayrı zamanların ədəbi panoramının yaranması, insan və zaman, ədəbi şəxsiyyət və milli xarakter problemlərinin qoyuluşu və onların təhlili bütövlükdə, XX əsri tarixi-tipoloji vahid kimi dərk etməyə yol açmış, ötən əsrin poeziyasının müstəqilliyə qədərki mərhələlərinə bələdlik imkanı qazandırmışdır. Müstəqillik illərindən başlayaraq Azərbaycan poeziyası elmi-nəzəri fikri bir neçə yöndən maraqlandırmışdır. Başlıca istiqamət müharibə gerçəklərinin, yaşadığımız fəci situasiyaların, o cümlədən vətənpərvərlik, milli azadlıq duyğularının poetik sözdə təcəssümünü üzə çıxarmaq olmuşdur ki, Elçin Mehrəliyevin "Müharibə və ədəbiyyat"( Bakı: Azərnəşr, 2000), Almaz Binnətovanın "Poeziyada milli azadlıq duyğuları" (Bakı: Ağrıdağ, 1997), Almaz Əliqızının "Azadlıq və istiqlal poeziyası" (Bakı: Bakı Universiteti Nəşriyyatı, 2001), Mərziyyə Nəcəfovanın "Poeziya və Qarabağ problemi" (Bakı: MBM, 2001), Hicran Nəsibovanın "Müasir Azərbaycan poeziyasında milli azadlıq hərəkatı (1985-1995-ci illər)" (Bakı, 2001), Anar Vəziroğlunun "Ayağa dur, Azərbaycan! Çağdaş Azərbaycan poeziyasında milli vətənpərvərlik mövqeyi (1980-1990-cı illər)" (Bakı: Ulu, 2002) və başqa bu kimi tədqiqatlar problemin araşdırılmasını təqib etmişdir. Bundan başqa Qurban Bayramovun "Lirik qəhrəman və zaman" (Bakı: Elm, 1986), Rəhim Əliyevin "Şeirin illəri və problemləri// Poeziyanın təbiiliyi" (Bakı: Yazıçı, 1982), Kamil Quliyevin "Lirika, müasirlik və qəhrəman" (Bakı: Yazıçı, 1983), Tofiq Hacıyevin "Şeirimiz, nəsrimiz, ədəbi dilimiz" (Bakı: Yazıçı, 1990), Himalay Qasımovun "Müasir Azərbaycan ədəbiyyatında yaradıcılıq meyilləri" (Bakı: Elm, 1998) kimi elmi nəşrlərdə, Tofiq Əbdülhəsənovun "Müasir Azərbaycan poeziyası: mövzu, janr və üslub problemləri (1991-2005)" (Bakı, 2011, əlyazması

hüququnda. Avtoreferat) avtoreferatında, Tehran Əlişanoğlunun “Müstəqillik illəri Azərbaycan ədəbiyyatı (I hissə: 1990-cı illər)” (Bakı: Qanun nəşriyyatı, 2013) dərsliyində Azərbaycan poeziyası müxtəlif mövzu, problematika, janr, üslub, dil məsələləri, inkişaf meyilləri kontekstindən araşdırılmış, daha çox zaman və insanın zamanda mövqeyi barədə yeni ideyaların doğuluşu məsələləri izah olunmuşdur. 1990-cı illər poeziyasında bir sıra ədəbi təmayüllərə, modernist cərəyanlara, postmodernist meyillərə maraq artmışdır ki, Tofiq Quliyevin (Tofiq Fərid) “Ədəbiyyatda realizm və modernizm problemi” (Bakı: Nağıl evi, 2006), Vaqif Yusiflinin “Poeziyanın yolları və illəri (1960-2000-ci illər)” (Bakı: Mütərcim, 2009), Sevinc Məmmədovanın “Azərbaycan ədəbiyyatında yeni yaradıcılıq meyillərinin təşəkkülü” (Dissertasiya, Bakı, 2009), Nərgiz Cabbarlının “Çağdaş Azərbaycan şeirinin inkişaf meyilləri (1993-2005)” (Dissertasiya, Bakı, 2015) kimi elmi araşdırmalarında dünya fəlsəfi-estetik fikrində mövcud olmuş cərəyanların səviyyəsi milli poeziyamızın ölçülərində axtarılmış, onların funksionallıq dərəcəsi üzə çıxarılmışdır. Qorxmaz Quliyevin “XX əsr Amerikan ədəbiyyatşünaslığında aparıcı cərəyanlar” (Bakı: Çaşıoğlu, 2011), Azər Turanın “Cavidnamə” (Bakı: Elm və təhsil, 2010), Afaq Əsədovanın “Ədəbiyyatlaşan dünya” (Bakı: Elm RNPM, 2014), Nərmin Kamalın “Umberto Eko və postmodernizm fəlsəfəsi” (Bakı: Qanun, 2012) kitablarında qoyulan problemlər, aparılan tədqiqatlar isə birbaşa bu cərəyanların, təmayüllərin dərkinə yönəlmiş, problemin Azərbaycan oxucusu üçün yeni tədqiqat spektrlərini üzə çıxarmışdır. Buna baxmayaraq, bir çox estetik-fəlsəfi cərəyanlar, ədəbi təmayüllərin Azərbaycan poeziyasının inkişaf qanunauyğunluğu zəminində açılması problemi araşdırılmamış, bu isə, bir çox məsələlərdə anoloji yanaşmalar ortaya qoymağa, müxtəlif dövrlərə məxsus poetik mətnləri müqayisə predmetinə çevirməyə imkan verməmişdir. Mövcud dissertasiya bu baxımdan, ayrı-ayrı dövrlərin poeziyasına sistemli, əhatəli nəzər yetirməyə material verir. Eyni zamanda, bu mətnlər yalnız lokal olaraq, milli təfəkkür hadisəsi kimi deyil, dünya proseslərinin bir hissəsi kimi qavranılır,şərh olunur, mətnlərə istinadən nəzəri cəhətdən gerçəkləşdirilir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatda başlıca məqsəd müstəqillik dövrü Azərbaycan poeziyasını müasir ədəbi təmayüllər kontekstindən araşdırmaq, poeziyada yeni yaradıcılıq istiqamətlərini meydana çıxarmaq, onların milli poetik təcrübə və dünya cərəyanları ilə qarşılıqlı təmasını təhlilə cəlb etməkdir. Bu məqsəd bir sıra elmi vəzifələrin həllini gerçəkləşdirir:

– Milli müstəqillik dönəmindən başlayaraq meydana çıxan yeni

poeziya mətnlərinin ümumi mənzərəsini canlandırmaq;

– bu mətnlərin digər onilliklərdə yaranan poeziya nümunələri ilə oxşar və fərqli cəhətlərini göstərmək, Azərbaycan poeziyasının inkişafında ədəbi təmayüllərin rolunu səciyyələndirmək;

– digər mərhələlərdə qabaran problemlərin, aparılan poetik islahatların müstəqillik illəri üçün davamını izləyib, onların elmi-nəzəri səciyyəsini müəyyənləşdirmək;

– 90-cı illərdə formalaşmağa başlayan "yeni şeir"lə bağlı nəzəri-estetik konsepsiyaları araşdırmaq. Çünki yeni dövrün poeziyası ilə səsləndirilən nəzəri-estetik problemlər məhz tənqidi məqalələrdə qabarıq və aydın ifadə edilmişdir.

– dünya ədəbi təmayüllərinin çağdaş poeziyada dərkini vermək, modernist cərəyanların, o cümlədən postmodernizmin milli poeziyamızda təzahür üsullarını təhlil etmək

-Bu dövr poeziyasına hakim olmuş "izm" axını, çöküş ovqatı, dekadans çalarları, o cümlədən ideya-bədii axtarışlar müxtəlifliyi ilə dünyada və ölkəmizdə gedən qlobal hadisə və proseslərin arasındakı rolu aşkara çıxarmaq

-çağdaş şeir və "milli izm" məsələsini incələmək, müstəqillik dövrü poeziyasının səciyyəvi xüsusiyyətlərini ənənəvilik və novatorluq prinsipləri əsasında dəyərləndirmək

-Müstəqillik illəri poeziyasının ideya-bədii xüsusiyyətlərini, forma, məzmun dəyişikliklərini və zamanın yeni lirik qəhrəman problemini araşdırmaq

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın yeniliyi ilk növbədə 90-cı illərin – milli müstəqillik illərinin özünün bir mərhələ kimi yeni olması və onun qarşıya çıxardığı məqsəd və vəzifələrin yeniliyi ilə izah olunmalıdır. Bu dövr elə bir mərhələdir ki, XX əsr daxilində öz əlahiddəliyi ilə xüsusi əhəmiyyət kəsb edir. Keçid dövrü kimi xarakterizə olunan bu mərhələnin bir-biri ilə ziddiyyət təşkil edən ikili səciyyəsi – onun həm qopub ayrıldığı sovet dövrünün rudimentlərini özündə daşıması, bu qalıqlarla mübarizə apararaq yeni biçimdə özünü ifadə etməyə çalışması, müstəqillik kimi tarixi nailiyyətindən yararlanaraq azadlığına nail olması, eyni zamanda üzləşdiyi müharibə amilinin özü ilə gətirdiyi problemləri dəf etməyə çalışması kimi əlamətlər dövrün əsas göstəricisini təşkil edir ki, dissertasiyada poeziyanın bu yöndə iştirakını göstərməyə xüsusi diqqət yetirilmişdir. Tədqiqatın başlıca yeniliyi əsasən bu amillə şərtlənir.

Mövzunun yeniliyini şərtləndirən mühüm amillərdən biri də, onun ilk dəfə sistemli şəkildə işlənməsi, tədqiqata cəlb olunmasıdır. Bu dövr

poeziyası ilə bağlı müəyyən araşdırmalar meydanda olsa, onun ayrı-ayrı illəri, mövzuları tədqiq olunsa da, müstəqillik dövrü Azərbaycan poeziyası müasir ədəbi təmayüllər kontekstində ilk dəfə olaraq tədqiqat predmetinə çevrilir, mövzunun ətraflı, daha dərin qatlarına, özəlliklərinə nüfuz edilir.

– Tədqiqatda ilk dəfə olaraq poeziyada meydana çıxmış ədəbi təmayüllərə tarixi-müqayisəli kontekstdə nəzər yetirilmiş, orta əsrlər klassik fəlsəfi poeziyasından tutmuş XX əsrin birinci yarısının romantik-fəlsəfi şeirinə qədər keçdiyi yol izlənilmiş, sovet dövrü Azərbaycan poeziyasında mövcud olmuş yaradıcılıq istiqamətləri, poetik islahatlar sistemli təhlilə cəlb edilmiş, onların çağımızda hansı modifikasiyalara məruz qalması, yaxud bu və ya digər şəkillərdə mövcudluğunu davam etdirməsi məsələsi tədqiq olunmuşdur.

– Tədqiqatda ilk dəfə olaraq 90-cı illərdə yeni şeirlə bağlı nəzəri-estetik fikrin qənaətləri, irəli sürdüyü ideyaların elmi mənzərəsi verilir, bu qənaətlərə diqqət yönəldilir.

–Dissertasiyada ilk dəfə olaraq dünya ədəbi təmayülləri ilə çağdaş poeziyanın münasibəti araşdırılır, dekadentizm anlayışının, modernist cərəyanların, postmodernizmin milli poeziyamızda təzahür üsulları müəyyənləşdirilir

-çağdaş şeir və "milli izm" məsələsi, poeziyada meydana çıxmış tendensiyalara ənənə və novatorluq müstəvisindən nəzər yetirilməsi də tədqiqatın elmi yeniliyini təşkil edir.

-ilk dəfə olaraq burada 90-cı illər ədəbi prosesində mövcud olmuş mənəvi deqradasiya hallarının poetik fikrə təsiri araşdırılır, "izm" axtarıcılığı yönündə poeziyada meydana çıxmış nihilist meyillər, modern dünya, modern dünya konsepsiyası kimi məsələlərə diqqət yönəldilərək aydınlaşdırılır.

-Tədqiqatda ilk dəfə olaraq müstəqillik dövrü poeziyasındakı yeni forma, məzmun və ideya-bədii axtarışlar müxtəlifliyi təhlil edilmiş, poeziyanın lirik qəhrəmanı hansı yeniliklərlə zənginləşmişdir kimi məsələlərə aydınlıq gətirilmiş, müxtəlif poetik nümunələr əsasında bu problemlərin elmi şərhi izah edilmişdir

-ilk dəfə olaraq bizim tədqiqatda poeziyada feminizm çalarlarına ayrıca önəm verilmiş, bu dövr poeziyasında güclənən "qadın başlanğıc"lı şeirlər dünya poeziyasında gedən proseslərin nəticəsi olaraq dəyərləndirilsə də, Şərq konteksti də nəzərə alınmaqla təhlil edilmişdir

**Nəzəri-metodoloji baza.** Tədqiqat işi müstəqillik dövrü Azərbaycan poeziyasının müasir ədəbi təmayüllər kontekstində öyrənilməsində müqayisəli təhlil metoduna və müasirlik prinsipinə əsaslanmaqla aparıl-

mışdır. Dissertasiyanı yazarkən mövcud ədəbi-nəzəri materiallardan və dünya ədəbiyyatşünaslığının elmi-nəzəri fikrindən istifadə edilmişdir.

**İşin aprobasiyası.** Dissertasiyanın mövzusu AMEA Nizami adına Ədəbiyyat İnstitutunun Elmi Şurası tərəfindən təsdiq olunmuş və həmin İnstitutun Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı və Ədəbi tənqid şöbələrində yerinə yetirilmişdir. İşin əsas müddəaları ayrı-ayrı jurnal və məcmuələrdə, Beynəlxalq və Respublika elmi konfransların materiallarında, bir sıra nüfuzlu xarici nəşrlərdə çap olunmuşdur.

**Dissertasiyanın praktik əhəmiyyəti.** Dissertasiyadan ali məktəblərin filologiya fakültələrinin tələbə və magistrləri, Azərbaycan dili və ədəbiyyatı müəllimləri, ədəbiyyatşünas alimlər, çağdaş Azərbaycan şeirinin vəziyyəti, keçdiyi inkişaf yolu, onun dünya cərəyanları ilə münasibəti ilə maraqlananlar istifadə edə bilərlər. Tədqiqat işindən eyni zamanda filologiya fakültəsində bir sıra xüsusi kurslarda dərs vəsaiti kimi də istifadə etmək mümkündür.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, dörd fəsil, nəticə və istifadə olunmuş ədəbiyyatın müxtəsər siyahısından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

G**iriş**də problemin aktuallığı əsaslandırılır, tədqiqatın obyekti, predmeti, məqsəd və vəzifələri, metodoloji əsası, tədqiqat metodları, tədqiqatın elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, müdafiəyə təqdim olunan müddəalar şərh olunur.

Dissertasiyanın birinci fəsli **"Azərbaycan poeziyasında ədəbi təmayüllər: təşəkkül və inkişafına dair"** adlanır.Bu fəsildə 90-cı illərin mərhələ xüsusiyyətlərindən, bu illərdə üzləşdiyimiz çoxsaylı problemlərdən bəhs edilərək, dövrün poeziyası da həmin proseslərin, eləcə də dünyada hakim olmuş xaotik durumun bədii mətndə təzahürü olaraq dəyərləndirilir. Çünki XX əsrin sonlarında Azərbaycanda baş verən proseslərə – xaos və kataklik olaylara, müharibə və savaşlara, siyasi çəkişmələr və oyunlara, terror hadisələri və qətliamlara yalnız lokal bir cəmiyyətin problemi kimi yanaşılmır, bu böhran həddi dünya səviyyəsində gedən xaos dalğasının təzahürü olaraq qavranılırdı. 1993-cü ildə Ümummilli lider Heydər Əliyevin ikinci dəfə Azərbaycana rəhbərliyə qayıdışından sonra ölkədə siyasi qarşıdurma aradan qalxdı, Azərbaycan-Ermənistan arasında atəşkəs rejimi elan olundu, bütün sahələrdə sabitlik hökm sürməyə başladı. Bu ovqat dəyişimi poeziyanın müraciət etdiyi mövzularda yox, onlara münasibətdə təzahür etmişdir. 90-cı illərin ortalarına qədər poeziya daha

çox çılğın, əsəbi notlar üzərində gəzişir, pafos, çağırış, üsyan ruhu daha öndə qərarlaşırdı. 90-cı illərin ortalarından başlayaraq poeziyaya daha təmkinli şair ədası, loyal yanaşması güclənir. Bu, getdikcə səngiyən müharibə alovunun, aradan qalxan siyasi hərc-mərcliyin nəticəsi idi ki, bədii fikirdə də proseslərə daha üst baxışı şərtləndirmişdi. Akademik İsa Həbibbəyli dövrün mürəkkəb poeziya mənzərəsi ilə bağlı müşahidələrini dəqiq və sərrast ifadə edir: "Azərbaycan ədəbiyyatında ən çətin məqamlarda belə bədii sözün qüdrəti Bəxtiyar Vahabzadə, Məmməd Araz, Xəlil Rza, Sabir Rüstəmxanlı, Zəlimxan Yaqub və başqaları kimi şairlərin timsalında öz gücü və enerjisini, sənət səviyyəsini qoruyub saxlaya bilmişdir"[1].

Birinci fəslin birinci yarımfəsli"Poeziyada yeni təmayüllərin formalaşmasının ədəbi-tarixi şərtləri" adlanır.Ədəbi təmayüllərin yaranmasında müxtəlif amillərin rolu var. Ədəbi təmayüllər adətən, fikrin, düşüncənin dramatikliyi ilə müşayiət olunan zaman kəsimlərində meydana gəlir və dövrün hakim ideologiyasına müxalif olaraq yaranırlar.Burada iki amilin rolu həllediciidir: zamana müxalif ideya və onun doğuluşunu şərtləndirən yeni sənət, insanın zamanda yeri ilə bağlı irəli gələn yeni estetik prinsiplər. Burada bəlli olan qanunauyğunluğa da diqqət etməmək olmur. Fərdi özünüdərk amili azad fikirlər doğuluşuna yol açır, azad fikirlər isə ardınca azad sənət ekvivalentini gətirir, ənənəvi sənətin doqmalarına qarşı çevrilən modernizə cəhdləri bədii mətnlərdə yeni düşüncə inikasını sərgiləmiş olur.

XX əsrin əvvəllərində Qərbdə yaranmış cərəyanlar klassik qəlibləri dağıtmaq ehtiyacından, müəyyən iqtisadi, siyasi-ictimai şərtlərdən, insanın daxili narahatlığından, özünü azad ifadə etmək, dünyanı dəyişmək arzusundan, keçmişə, ənənəçiliyə qarşı revanşist ovqatdan meydana çıxırdı. Dövrün tələbindən meydana çıxan, ictimai-siyasi ehkamlara, dominant düşüncə tərzinə qarşı dayanan bu cərəyanlar kreativ azad düşüncənin məhsulu idi və hər cür monodüşüncəyə, alternativsiz münasibət aşılayan cəmiyyətə qarşı çevrilmişdilər.

Keçid dövrü həmişə mürəkkəbliyi, ictimai, bədii və elmi dəyərlərin yenidən qiymətləndirilməsi ilə seçilir. Bədii-estetik düşüncə də, onun elmi-tənqidi dərkinin meyarları da əsaslı dəyişikliklərə məruz qalır. Belə qarışıq zamanlar isə bildiyimiz kimi, fikrin, təfəkkürün dramatikliyi ilə müşayiət olunur. İnsanların təfəkküründə xaos yaranır. 1990-cı illərdən başlayaraq düşüncə sistemini elə paradiqmalar müəyyənləşdirməyə başladı ki, onları

---

[1]Həbibbəyli İ. Ədəbi-tarixi yaddaş və müasirlik. Bakı: Nurlan, 2007, s.302.

sovet dövrünün elmi-nəzəri yanaşmaları, estetik mündəricəsi ilə, qapalı kulturoloji struktur sistemlərlə bağlamaq mümkün olmadı. Mətn oxunuşu və bununla bağlı funksionallıq qazanan nəzəri postulatlar ədəbiyyatşünaslıqda ədəbi fakta, ədəbi prosesə yanaşmada dominanta çevrilirdi. Postmodernizm müasir dünyanın qavrama və dərketmə prosesini idarə etməyə başladı. Uzun müddət qapalı münasibətlərdə olduğumuz universal baxış sistemləri düşüncə strukturumuza mexaniki tətbiq olunduğundan süni imitasiya təsiri bağışlayırdı. Bu təmayülün nəticəsində "Klassik ictimai-mənəvi dəyərlər daha çox çağdaş siyasi meyarlar çərçivəsində qiymətləndirilməyə başlandı. Dünyagörüşdə, ideologiyada boşluq yarandı və hakim stereotipləri siyasi konyüktura və digər ifratlar əvəz etdi"[1].

Bu qarışıqlıqda Avropa cərəyanlarının meyar seçilməsi, bu sıradan modern cərəyanlara ifrat aludəlik, yalnız modernist mahiyyətli poetikaya müraciətlər hallarının qabarması bir tərəfdən, dünya proseslərinə qoşulmaq, ədəbiyyatda yaranmış boşluqları doldurmaq amacına xidmət edirdisə, digər tərəfdən milli bədii təcrübənin imkanlarına, həm də bu təcrübəni ümumiləşdirən milli elmi-nəzəri təcrübənin qənaətlərinə inamsızlığın, etinasızlığın əlaməti kimi mənalanırdı. Bu dövr poeziyasında da Avropa ədəbiyyatının bir əsr ərzində keçdiyi yolu sürətlə, radikal formada keçməyə cəhdlər vardı və bu vəziyyət çoxsaylı metodların qarışığından doğan bir eklektizm yaratmışdı. 90-cı illər poeziyasını yeni təmayüllər kontekstində öyrənmək də ilk növbədə, poetik mətnləri bu metodların mürəkkəb, qarışıq münasibətləri fonunda araşdırmağı zəruri edir.

Dissertasiyanın ikinci yarımfəsli **"Azərbaycan poeziyasının inkişafında ədəbi təmayüllərin rolu"** adlanır. Burada bütünlükdə milli poeziyamız mərhələli şəkildə tədqiqat predmetinə çevrilir. Orta çağ klassik fəlsəfi poeziyası və bu poeziyada dominant təmayül, dünyagörüş olan sufizm, XX əsrin birinci yarısının romantik-fəlsəfi şeiri, sosialist-realizmi cərəyanı və poeziya, eləcə də, 60-cı illər sərbəst düşüncə poeziyası kimi nəzərdən keçirilir.

Orta əsrlər poeziyasında ədəbi-fəlsəfi cərəyanlar, xüsusilə sufizm cərəyanı funksional olmuş, bütün ortaçağ ədəbiyyatı bu cərəyanın məhvərində fırlanmışdır. Bu dövrlərdə yaşayıb yaratmış şairlər, üləmalar elmi traktat və risalələrində qaldırdıqları fəlsəfi-idraki qənaətlərlə qane olmayıb öz fikirlərini irfan qatında çatdırmışlar. Bu yarımfəsildə Ə.Yəsəvi,

---

[1]Alışanlı Ş. Müasir humanitar təfəkkür və Azərbaycan ədəbiyyatşünaslığı. Bakı: Elm, 2011, s.13.

E.Miyanəçi, Xaqani, Nizaminin, Ş.Y. Sührəvərdi, M.Füzulinin simasında orta əsr poeziyasında insan və Tanrı mövzusu ətraflı şərh olunmuşdur.Həmçinin bu bölümdə XX əsr mərhələsinin poetik özəllikləri üzə çıxarılmış, şeirimizdəki aparıcı təmayüllərə diqqət yönəldilmişdir. XX əsrin əvvəllərində yazıb-yaratmış şairlərin sovet dövründə görməzdən gəlinən dünya konteksti məsələsi, xüsusilə H.Cavid, M.Hadi şeirlərindəki dekadans çalarlar, həmin ədəbiyyatın kifayət qədər dünya proseslərinə açıq və ayıq olan reaksiyası, özünəməxsus uslubi zənginlikləri öyrənilməmişdir. Biz daim bu dövr sənətkarlarının yaradıcılığını dünya ədəbi-mədəni proseslərindən ayırmış, təhriflərə məruz qoymuş, onlarda XX əsr ölçülərini araya bilməmiş, yaxud şüurlu şəkildə görməzlikdən gəlmişik. H.Cavidin yaradıcılığındakı fəlsəfi dramatizmin, yaxud Ə.Hüseynzadənin əsərlərindəki sosial-ictimai dərinliyin izlərini çox uzaqlarda, Qərbdə, Avropa düşüncəsinə aludəlikdə, onu yamsılamaqda axtarmışıq. Dissertasiyada XX əsrin əvvələrində yaşamış sənətkarımızın bir qisminin yaradıcılığı məhz bu ölçülər, dünya proseslərini xarakterizə edən düşüncə tipi və tendensiyaların meyarları daxilində təsbitini tapmışdır.XX əsrin əvvəllərində ədəbiyyatın dünya ilə bağlılığına ən böyük töhfəni Hüseyn Cavid yaradıcılığı verir. Cavidin qəhrəmanları sələflərindən fərqli olaraq daha çox düşünən qəhrəmanlar kimi maraqlı idilər. Onlar dünya işlərinə qarışır, onun səhmanına qarşı öz iç əzablarını qoyurdular. Şeyx Sənan öz fərdi duyumu formalaşandan sonra kamil dünya fəlsəfəsinə qoşulanlardan biri kimi görünür. Xəyyam öz idrak çeşməsi ilə profanlığa meydan oxuyur, Peyğəmbər elmin və əqlin gücünü hər vəchlə təlqin eləməyə çalışır... Cavid bu “yerlə çarpışıb, göylə əlləşən”, səmavi düşüncəli, ovqatlı, hallı-ruhlu qəhrəmanları ilə əslində, Azərbaycan ədəbiyyatının semiotik harmoniyasını yaratmağa xidmət edirdi. Yenilik - milli ədəbiyyatın dəyərlərinin dünya təcrübəsi ilə sintez edildiyi təqdirdə yaranır. Cavid dramaturgiyası bu sintez işinə dünya ədəbiyyatı faktorunu, kontekstini yaşam şəklində - həzm edərək verirdi. Bu mətnlər milli ədəbiyyatımızın ictimai-fəlsəfi və ədəbi-bədii ənənələri üzərində gəlsə də, davamını dünya mədəniyyəti sferasına qoşulmaqda tapırdı. Bunu Cavidlə bağlı meydanda olan hələlik ən son ciddi tədqiqat – Azər Turanın “Cavidnamə”si belə isbatlamada: “...Cavidin İstanbulda təhsil aldığı illərdə türk ədəbi camiasının ən tanınmışları, o cümlədən, Cavid yaradıcılığı üzərində güclü təsir buraxmış Tofiq Fikrət, Rza Tofiq, Cənab Şihabəddin, Xalid Ziya Uşaqlıgil ... fransız filosofu Oqüst Kontun (1798-1857) insan düşüncəsini teoloji, metafizik və pozitiv

olaraq üç mərhələdən ibarət hesab edən pozitivist fəlsəfəsinin təsiri altında idilər" [1]. Bu mənada, Cavid yaradıcılığını böyük bir ədəbi hərəkatın başlanğıcı sırasında almaqdan daha çox, onu *dünyada gedən qlobal-mənəvi, ictimai-fəlsəfi hadisələrin nəticəsi*kimi almalıyıq. Zamanı gəlmiş, əsr daşan enerjisini daha bir istedadın simasında əyaniləşdirməyə fürsət bulmuşdur. Bu dəfə Cavidin şəxsində təbii...

Cavid əsərlərində insan daha sərt və qatı konfliktlər sisteminə adlayır. Ona görə bu əsərlərdəki insanlardan yalnız milli düşüncə, ədəbiyyat faktı kimi danışmaq çətin, bəsit yanaşma şəklində görünür. Bu qəhrəmanlar mənəvi-sosioloji-fəlsəfi-psixoloji yaşam halı ilə daha çox XIX əsr hadisələrinin yetirdiyi insanlar kimi "yüklənmiş" görünürlər. Yüngül mövzular, bəsit ictimai-mədəni təsisatlarla silahlanmış sovet düşüncəsi isə görünür belə bir "yükü" çəkməyə özündə güc (oxu: cəsarət) hiss eləmirdi. Çünki Cavid obrazlarının düşüncə sistemini elə paradiqmalar müəyyənləşdirirdi ki, onları sovet dövrünün elmi-nəzəri yanaşmaları, estetik mündəricəsi ilə, qapalı kulturoloji strusktur sistemlərlə araşdırmaq mümkün deyildi. Yalnız 60-cı illərdən başlayaraq mətn oxunuşu və bununla bağlı funksionallıq qazanan nəzəri postulatlar ədəbiyyatşünaslıqda ədəbi fakta, ədəbi prosesə yanaşmada dominanta çevrildikcə, müasir dünyanın qavrama və dərketmə prosesini idarə etməyə başlayan universal baxış sistemləri düşüncə strukturumuza daxil olduqca bu yöndə konseptual tədqiqatlar aparmaq mümkün oldu.

Dissertasiyanın ikinci yarımbölümündə daha sonra 1920-30-cu illər Azərbaycan poeziyasında yeni təfəkkürün formalaşması prosesi, proletar poeziyası kimi səciyyələnən təmayülün mühüm xüsusiyyətləri, bu poeziya daxilində hadisə kimi doğulan Mikayıl Rəfili şeirinin özəllikləri, eləcə də 60-cı illərin sərbəst düşüncə poeziyası kimi təzahürü ətraflı təhlilini tapmışdır.Tədqiqatçı əsaslandırmışdır ki, bu dövr poeziyasında əsas yeniləşməni sərbəst şeirin meydanının genişlənməsi ilə əlaqələndirmək olar. Qeyd etdiyimiz məcrada belə bir şeir şəklinin milli poeziya məkanına gətirilməsi və onun nümunələrinin yaranmasına cəhdlər etiraf edək ki, o qədər də asan məsələ deyildi. Bu, yalnız vəznin sərbəstliyi anlamında qavranılmamalıdır, həm də düşüncədə sərbəstliyə, çoxqatlılığa yol açmaq mənasında qəbul olunmalıdır. Əlbəttə, "sərbəst şeirə yalnız milli poeziya hadisəsi kimi baxmaq düzgün və obyektiv olmazdı. Sərbəst şeir XX əsrdə beynəlxalq hadisə, qlobal bir mədəni təmayül və cərəyan olmuşdur"[2]. Türk

---

[1]Turan A. Cavidnamə. Bakı: Elm və təhsil, 2010, s.29.

[2]Salmanov Ş. Sərbəst şeir problemi. Ədəbi-nəzəri məcmuə, I kitab, Bakı, 2003, s.68.

dünyasının ölməz şairlərindən sayılan N.Hikmətin 1927-ci ildə "Günəşi içənlərin türküsü" kitabının Bakıda cap edilməsi, "Rusiya və rus şeirinin təsiri olaraq V.Mayakovskinin Azərbaycanda öyrənilməsi"[1] poeziyanın yeni istiqamətdə inkişafını şərtləndirmiş oldu. Şeirimiz forma və məzmunca yeni keyfiyyət axarına adladı, dil-ifadə, təşbeh-məcazlar sistemi dəyişməyə başladı. Yeni poetik formalaşmada başlıca məsələ şeirin məna və ahənginin, səs və ritminin təbəddülata uğraması, obrazlara canlılığın gətirilməsi ilə bağlı idi. Milli poeziyada N.Hikmətdən təsirlənən ilk şairin Əli Nazim olduğunu, yeni poetik üslubun onun adı ilə bağlandığını qeyd edən tədqiqatçıların fikirlərinə rəgmən sərbəst şeirin millilik statusu qazanmasında əsas rolu olan şair Mikayıl Rəfilidir. Professor Şamil Salmanov "Sərbəst şeir problemi" məqaləsində yazır: "Maraqlıdır ki, bizdə sərbəst şeir iddiası ilə çap olunan ilk şeirlər futurizm hadisəsi kimi qarşılanmışdır. Əli Nazimin "İnqilab" şeiri (1926) münasibəti ilə yazdığı və çap etdirdiyi ilk məqaləsini M.Hüseyn "bizdə futurizm" adlandırdığı məlumdur. Lakin sərbəst şeir Azərbaycan poeziyasında 20-ci illərdə ən qüvvətli və parlaq bir şəkildə M.Rəfilinin yaradıcılığında meydana çıxmış"dır[2].

Daha sonra, 60-cı illəri sərbəst şeirin intişar mərhələsi kimi səciyyələndirən tədqiqatçı Rəsul Rzanın "Rənglər" silsiləsi, o cümlədən onlarla digər şeir nümunələri əsasında poeziyamızdakı çağdaşlaşma meyillərininə diqqət yönəltmişdir. Amma onu da vurğulamışdır ki, R.Rzanı milli poeziyamızda modernizmin baniye-karı hesab eləmək doğru olmazdı. Çünki "Modernist yuxusundan oyanmış insandır – o, dünyanı özündə kəşf edir və öz içində yeni, modern bir dünya modeli qurur. Psixoanaliz dili ilə desək, ekstravert (çölə yönəlik) realizmin əksinə olaraq, modernizmin introvert (içə yönəlik) səciyyəsi, onun Coys, yaxud Kafkada olduğu kimi bəzən fantosmoqorik psixologizmlə şərtlənməsi də bununla bağlıdır. Çünki modernizmdə zahiri və virtual gerçəklik birləşir – dünya insana sığır, insan dünyaya çevrilir" [3]. R.Rza poeziyasında təsvir və tərənnüm olunan İnsan isə qlobal narahatlıqdan dolayı təsvirə və tərənnümə çəkilən obrazdır. Burada fərdi insan maraqları öndə deyil, ümumən İnsan konteksti kimi qabarıqdır.Buna baxmayaraq, R.Rzanın şeirləri sovet dövründə özünə qapanıb qalmış, aləmdən nəşəyə üz tutmuş insanın öz boyundan yuxarı qalxıb dünya insanına qoşulmaq çabasına, onun çağdaşlıq statusu

---

[1]Əsgərli Ə. XX əsr Azərbaycan şeirinin poetikası. Bakı: APOSTROFF, 2014, s.207.
Bax: [2]Salmanov Ş. Sərbəst şeir problemi. Ədəbi-nəzəri məcmuə, I kitab, Bakı, 2003, s. 69.
[3]Cahangir Ə. Kim yatmış, kim oyaq. Bakı: Yazıçı, 2012, s.300.

qazanmasına doğru gedilən yolun ilk addımlarından sayılmalıdır. R.Rza şeirində meydana çıxan dünya konteksti, cağdaşlıq axını daha sonra Ə.Kərimin, F.Sadığın, F.Qocanın, Ə.Salahzadənin, İ.İsmayilzadənin və. başqa şairlərimizin yaradıcılığında davam edib özünün yeni, poetik özəlliklərlə zəngin nümunələrində sərgilənmişdir ki, bu yarımfəsil həmin özəlliklərə diqqət yönəltmişdir. "60-90-cı illər poeziyasında modernist təmayüllü şeirin aparıcı mövqe qazanmasını iddia etmək yanlışlıq olardı. Çünki bu istiqamət hələ öz başlanğıc mərhələsini yaşayırdı, elə yenilikçi və novator şair kimi tanınan Əli Kərimin, Fikrət Sadığın, Fikrət Qocanın, Ələkbər Salahzadənin, Vaqif Səmədoğlunun şeirlərində bu istiqamət yalnız birxətli inkişaf edirdi. Ancaq burada həmin şeirləri ayrıca bir təmayül kimi fərqləndirən, ənənəvi şeirdən ayıran cəhətlər göz qabağında idi"[1]. Bu cəhətlər hansılar idi? Məncə bu suala aradığımız cavab həm də 60-70-ci illər şeirimizin XX əsr daxilində özəlliyini ortaya qoymağı, fərqləndirməyi labüd edir. Əvvəla, 60-cı illərdən başlayaraq milli poetik düşüncəmiz əsil lirika nümunələri kimi doğula bilir. Bunu yalnız həmin dövrdə poeziyaya qədəm qoymuş cavan şairlərin mətnləri əsasında təsdiqləmək doğru olmazdı. Deyək ki, sovet ideologiyasının ən qatı, alovlu tərənnümçüsü və təbliğatçısı kimi tanınan şairlər belə 60-cı illərdən başlayaraq yenidən doğula bilərlər. Sovet ədəbiyyatı tarixində hər cür ideolojidən kənar, xalis poeziya nümunəsi kimi intişar tapan Əli Kərimin şeirləri ilə bahəm "Lenin" poemasının və bu kimi bir çox pafoslu şeirlərin müəllifi olan R.Rzanın da şeirləri əsil poetik mətnlər olaraq ərsəyə gəlir. Şeirin bədii təsvir və ifadə vasitələrinin dəyişdirilməsi, assosiativ təfəkkürün itiliyi, təşbeh və metaforalara polifonik çalarlıq vermək, konstruksiya əsasında şeiri qurmağa çalışmaq və bu yolla oxucu düşüncəsini oynatmaq, onu daim dinamik və oynaq saxlamağa nail olmaq - 60-70-ci illər şeiri daha çox bu xüsusiyyətlərin funksionallığı ilə önəm kəsb edir.

60-cı illər milli poeziyada modernizmə keçid anı idi, bu mərhələdən tam bir modernizm mərhələsi kimi danışa bilmərik. Bu dövrdə yaranan şeirlər fəlsəfi-intellektual təmayülün əsasını qoymaqla bahəm, düşüncə vüsətinin genişliyi ilə seçilir, insana münasibətdə planetar səviyyədə narahatlıq və sevincini izhar edir, şairin öz fərdi "mən"inə marağını arxa plana keçirir, daha çox ictimai gerçəkliyə münasibətini önə çəkməyi tərcih edirdi. Ə.Kərimin "Ana" şeiri düşüncələrimizi daha əyani şəkildə sərgiləyir. Hətta anasına ünvanladığı şeirdə belə şairin duyğuları fərdi

[1]Yusifli V. Poeziyanın illəri və yolları (1960-2000-ci illər). Bakı: Mütərcim, 2009, s.349.

yaşamından, subyektiv hiss-həyəcanının inikasından qanadlanmır, rejimin şair önünə yuvarlatdığı "ictimai-siyasi Vətən" anlayışının hüdudlarından çıxış edirdi: "Mən səni bağrıma basanda bərk-bərk,/Gör nələr düşünüb, nələr duyuram!/ Elə bil Göyçaydan Kamçatkayadək/Vətən torpağını qucaqlayıram" [1]. Bəzi tədqiqatçılar, məsələn Y.Qasımbəyli bunu müəyyən zaman kəsiminin təzahürü kimi səciyyələndirsə də, bu fikirdə olduğu kimi: "... bu münasibət altmışıncıların yaradıcılığında keçəri bir hal kimi dəyərləndirilməlidir. Çox keçmədən gənc qələm sahibləri SSRİ adı ilə işarələnmiş siyasi-coğrafi məkana deyil, öz qəlblərində olan yuva salmış, bütün munis və müqəddəs duyğuların mənbəyi olan məsləkə Vətən deyə pərəştiş etdiklərini açıq-aşkar bütüb dünyaya elan etdilər"[2],- zənnimizcə, bu, heç də "keçəri bir hal" olmayıb həmin dövrdə və onlardan təsirlənərək növbəti onillikdə şeir nümunələri yaradan şairlərin yaradıcılığında başlıca təmayül kimi funksional olmuşdur. Əlvan təbiət boyaları, işıq, çılçıraq, yol və başqa motivlər - bu poeziyada qanadlı bir romantikanın olduğuna işarə idi. Şair hələ də dünya, təbiət və zamanla yol yoldaşı idi. Dünya düzəninə etiraz etmir, zamanın gərdişinə asi olmurdu. Sovet poeziyasının dörd onillik boyu funksional olan ekstravert (çölə yönəlik) dünyaduyumu bu illərdə öz apologiyasını yaşamaqda idi. Ə.Kərimin "Daş", "Metronun yaylı qapıları", "Günəbaxan", M.Arazın "İnsan qayalar", M.İsmayılın "Qar təmizliyi", F.Sadığın "Qızıl lalələr", "Gül ləçəklər" silsiləsi dövrün meditativ düşüncəsi ilə yüklənmiş poetik örnəklər olsa da toplumsal yönü ilə səciyyələnir, fərdi şair "mən"indən daha çox dünya insanına, cəmiyyətə ünvanlanırdı.

Sovet dövrü Azərbaycan poeziyasının 60-80-ci illərdə ərsəyə gələn yeni dalğası sərbəst şeirin meydanını genişləndirməklə, həm də bunu yalnız vəzn, forma mənasında deyil, həm də estetik mündəricə qazandırmaq, fikir sərbəstliyinə yol açmaq mənasında etməklə seçilə bildilər. Sonradan, 90-cı illərin ardınca gətirdiyi mövzular yeni olsa da, İnsanı poetik mətnin mərkəzinə gətirib ona yeni çalarlıq vermək kontekstində milli şeirimiz bədii-estetik zəmini məhz, az öncənin poetik təcrübəsindən, keçib gəldiyi 60-80-ci illər şeirindən alırdı. Amma bu artıq fərdi duyğuların əsirinə çevrilmiş, lirik subyektin şəxsi başlanğıcından çıxış edən, inikas formaları və təzahür şəkilləri başqa olan fərqli bir poeziya idi.

---

[1]Kərim Ə. Seçilmiş əsərləri. I cild. Bakı: Azərnəşr, 1991, s.24.

[2]Qasımbəyli Y. Milli oyanış və özünəqayıdış lirikası. Bakı: Elm və təhsil, 2012, s.407-408.

**“90-cı illər - keçid dövrünün şeiri. “Yeni şeir” haqqında nəzəri-estetik konsepsiyaların formalaşması”** adlanan üçüncü yarımfəsildə milli müstəqillik qazandığımız 90-cı illərin çağdaş ədəbi prosesin tərkibində etdiyi köklü dəyişikliklərdən, keçid dövrü olaraq həmin mərhələnin səciyyəvi xüsusiyyətlərindən bəhs olunur. Bəlkə də ard-arda yaşadığı kataklik, fəci proseslərin bolluğundan 90-cı illər poeziyasında fəlsəfi dərinlik artmışdır. Belə bir yenilik cəhdləri yalnız şairlər tərəfindən edilməklə bitməyib, həmçinin şeirə yanaşmada, onun təhlilinə münasibətdə də özünü göstərmişdi. Belə ki, dünya elminin qabaqcıl meyilləri, elmi-nəzəri fikri ilə silahlanan tənqidçilər sovet dövrünün şablon, stereotip təhlil qaydalarını inkar edərək şeir mətninə münasibətdə yeni nəzəriyyələr, ideya-estetik meyarlar tətbiq etməyə çalışırdılar. Bu yarımfəsildə elmi-nəzəri fikirdə poeziya ilə bağlı səsləndirilən fikirlərə diqqət yönəldilmiş, “yeni şeir” necə olmalıdır”, şeirin ideyası, məzmunu, ondakı naturalist ovqat, gerçəkləri psixoloji nüans səhihliyi ilə poetik fikrə gətirmək kimi məsələlərin nəzəri-estetik fikirdə qoyuluşu problemləri ətraflı incələnmişdir.

Dissertasiyanın ikinci fəsli “Dünya ədəbi təmayüllərinin çağdaş poeziyada dərki” adlanır.

Dünya ədəbi cərəyanlarının milli poeziyamızda əks olunması, poetik təqdimi üzərində tədqiqlər bu inikasın üç səviyyəsindən danışmağa əsas verir. Bunun birinci qatı XX əsrin əvvəllərinə gedib çıxır. H.Cavid, M.Hadi, Ə.Cavad, Ə.Hüseynzadə, M.Müşfiq, S.Vurğun şeirində dünya ədəbi cərəyanlarının təsiri danılmazdır, şəksizdir. Bu dövrdə bir tərəfdən türk şeirinin, digər tərəfdən Avropa şeirinin milli poeziyamızda təzahürü həm adı çəkilən sənətkarların əksəriyyətinin Türkiyə və Avropa təhsili görməsindən, oranın ədəbi-ictimai mühiti, yenilikçi şairləri (Türkiyədə divan-təriqət şeirinin çərçivələrini dağıtmış N.Kamal, Ə.Hamid, T.Fikrət, R.Tofiq, Avropada Höte, Şiller, Bayron, Rusiyada Puşkin, Lermontov, Blok, Yesenin, Bednı, Mayakovski) ilə tanışlıqlarından, həm də tərcümələr vasitəsilə təsirlənmədən doğurdu. İkinci mərhələ ötən əsrin 60-80-ci illərindən başlayaraq gəlişməyə başlayır. Bu dövrdə R.Rza, Ə.Kərim, Ə.Salahzadə, İ.İsmayılzadə və başqa şairlərimizin şeirlərindəki yeni nəfəs, yeni üslub və ifadə tərzi, predmeti mənalandırma rakursunun ardınca, V.Səmədoğlu, V.B.Odər, R.Rövşən poeziyasının dekadans - çöküş ritminə köklənməli oluruq. Estetik siqlət, poetik miqyas baxımından bu şairlərin mətnləri öz mərhələ xüsusiyyətlərini yarada bilmişlər. Milli müstəqilliyi qazandığımız 1990-cı illərdən başlayaraq isə poeziya tam fərqli biçimdə

meydana çıxmağa başlayır, yeni mərhələyə iki qütbün təması - dünya şeirinin poetik gücü və ənənəvi-realistik şeirin nəfəsi ilə daxil olurdu.

**Dissertasiyanın ikinci fəslinin birinci yarımfəsli** "Dekadentizm" anlayışı və onun ədəbiyyatda təzahür formaları"adlanır**.** Birinci dünya müharibəsindən sonra insanların bəşəriyyətin gələcəyi ilə bağlı ümidlərində bir boşluq yarandı, heç bir texnoloji inkişaf onları ruhlandırmadı. Bu, bütün Qərbdə özünü göstərən hərəkatın göstəriciləri idi. XX əsr kifayət qədər dünya proseslərinə açıq olan bir zaman kəsimi idi və dövrün aydınları potensial olaraq belə bir qarşılıqlı bəhrələnməyə hazır insanlar idilər. Qərb ədəbiyyatında XIX əsrin sonu XX əsrin əvvəllərində başlanan modernizə cəhdlərinin Şərq ədəbiyyatlarına, konkret isə milli ədəbiyyatımıza təsiri ədəbiyyatın özünün inkişaf qanunauyğunluğundan, məntiqi gedişindən doğurdu. Həmin dövrdə fəaliyyət göstərən sənətkarlar dekadent deyildilər, daha çox realist-romantik ədəbiyyatın nümunələrini yaradırdılar, modernist cərəyanlara meyil eləcə stixiyalı şəkildə, dəb, maraq səviyyə-səciyyəsində təsdiqini tapırdı. Amma romantik-realist ədəbiyyatın getdikcə "doyğunluq"u, eyni zamanda romantizmin puç olmuş, fiaskoya uğramış sonucları milli ədəbiyyatda belə bir durumun, "dekadent olmanın" yetişməsi üçün zəmin yaradırdı. "Fəlsəfi mənada dekadans ideoloji həmlələrin hədəfi olmaqdan çox, milli romantik-realist ədəbiyyatın tükənməsi, ədəbiyyatda XX əsr tempinin, ölçülərinin axtarılması meyilləri ilə bağlı idi"[1]. Bu, bütün dünya ədəbiyyatında belədir. Sənətkarın insan, dünya və zamanla bağlı idealları heçliyə yuvarlananda onun adı çəkilən fiqurlarla yeni dialoqu başlayır. Amma bu proses heç də birbaşa, sənətkar içinin asan "çevrilişi" hesabına başa gəlmir. Romantik idealların çöküşü ardınca ruhun tənhalığını, son problematikasını, dekadans durumunu gətirmiş olur. XX əsrin əvvəllərində H. Cavid, M.Hadi, M.Müşfiq, Ə.Cavad şeirlərindəki bədbin çalarlar həmin dekadansın əlamətləri idi. Zaman imkan versəydi bunun ardınca modernist cərəyanların prosesə yeriyəcəyi şübhəsiz idi. Sovet ideologiyasının bərqərar olması isə başlanan prosesləri yarıda qoydu və bildiyimiz kimi, yalnız bir cərəyanın – sosialist realizmin intişarına imkan yaratdı. Ədəbiyyat işıqlı gələcəklə bağlı arzular və ümidlər ardınca qoşmağa, sənəti ideolojiyə tabe tutmağa başladı. Yalnız 60-cı illərdən başlayaraq, ədəbiyyatın öz stixiyasına dönüşündən sonra

---

[1]Əlişanoğlu T. Çağdaş Azərbaycan ədəbiyyatında modernizmin gəlişməsi / Müqayisəli ədəbiyyatşünaslıq I beynəlxalq elmi konfransının materialları, Bakı, 2004, s.73

oxucu gerçək zamanla, gerçək dünya ilə üzbəsurət qala bildi. Bu bəlkə də əsrin 20-30-cu illərində yarımçıq qalmış, yarıda qırılmış ədəbiyyat, azadlıq ideallarının içinə hopmuş kədəri idi, yaxud 1937-ci ildə qırğına verilmiş bütöv bir ədəbi nəslin səssiz fəryadı idi – indi, zamanı gəldikcə boy verməyə başlayırdı. Həmin xaotik durumun rəvac verdiyi neqativlər sonucda ən böyük zərbəni insana vurdu, onunla zamanın, mənəvi-əxlaqi dəyərlərin sabitliyi arasındakı əlaqənin pozulmasına gətirib çıxardı: qlobal tənhalıq insanın özgələşməsini, özündən ayrılmasını, yadlaşmasını şərtləndirmiş oldu. Bu mənada, sovet rejiminin İnsanı yalnız müharibələrin əzdiyi insan deyildi, o, həm də tək qalmış, təcrid olunmuş, cəmiyyət tərəfindən təbii bir proseslə uzaqlaşmış, yadlaşmış çarəsiz insan idi. Həmin dönəmin mahiyyəti, onun yaddaş strukturunda yer almış görüntüləri ilə çağın insanının düşüncəsi arasında dialoq bədii təfəkkürə yansımaya bilmədi. Bədii düşüncə yeni təfəkkür modelləri axtarışında fərqli fəaliyyət sferasına daxil oldu. Qərbdə bu sosial anomaliya ilə ekzistensialist fəlsəfə məşğul olurkən, keçmiş postsovet məkanı ölkələrinin dünya ilə, insanla yeni münasibətlər sistemi yaratmağa çalışan fəlsəfi-estetik fikrində sərt realistik boyalar üstünlük qazanmağa başladı. Bu mənada, 60-cı illərdən başlayaraq dünya ədəbiyyatının yükləndiyi İnsan ağrısının ədəbiyyatın mərkəzinə çəkilməsi yalnız rejimin yumşalması səbəbindən hasilə gəlməmişdi, həm də puç olmuş, bada getmiş xəyalların yazıçı psixoloji-sində yaratdığı məntiqi nəticədən qaynaqlanmışdı.

Bu dövr şeirində qabaran başlıca çalar şeirimizin çöküş ritminə, dekadans ovqatına köklənməsi oldu. Dissertasiyada bu məqam yalnız poetik düşüncə kontekstini deyil, bütün mədəniyyət sferasının hüdudlarını çevrələyən, rəssamlıq, teatr sahəsində də zamanın özü ilə gətirdiyi başlıca təmayül olduğu üzə çıxır. Poeziyamızda bu təmayülün əlamətləri daha çox V.Səmədoğlu, R.Rövşən, V.B.Odər şeirində sərgilənsə də, 90-cı illər poeziyasında dekadansın təzahürlərinin motivasiyası başqa idi. 90-cıların poeziyasında əsas bədii ovqatı təşkil edən çöküş həyatın bozluğunu yaşayan, sabahına heç bir ümidi qalmayan ruhun çıxılmazlıq duyğusundan yaranırdı. Bu dövr poeziyasını 70-80-ci illərin dekadans ovqatından ayıran amillər də bununla əlaqədar idi. Düzdür, məsələn, V.Səmədoğlu 1968-ci ildə "Görüşdük/İçdik./Bir az/süfrədə olandan yedik,/bir az xatirələrdən./Gələcəyə də uzatdıq/əlimizi hərdənbir.../Çörək boyat/xatırələr acı,/gələcək yanıq çıxdı..." - deyərək eyni ovqatla yaşamın mənasızlığına işarə edir, zamana tutunma gerçəkliyinin itirilməsindən bəhs edirsə, 90-cı illərin şairi eyni nisgillə həyatın boşluğuna, yaşanılan ömrün mənasızlığına nəinki işarə edir, onu olduğu kimi, daha sərt, epotaj səciyyəli tonla nəzərə

çarpdırırdı: "otuz il yolların bağrını yortdum/günəşin necə doğduğunu/necə batdığını seyr etmədən yaşadım/xəyallarım narkotik/sevgilərim nevroz/həyatım boz"(Zahir Əzəmət)

Təbii ki, burada da qlobal problemlərdən doğan ümidsizlik öndə idi. Amma bura həm də fərdin başqa ağrıları əlavə olunmuşdu: müharibədə itirilən gəncliyin nisgili, gələcəklə bağlı illüziyaların yoxa çıxması, sosial problemlərin məngənəsində çırpınan şair həyatı, gün-güzəran dərdi, heç yerdən boy göstərməyən işığa həsrətlik və s. və i. Bütün bunlar da sonucda şairlərin içindəki böhranı dərinləşdirdi ki, ikinci fəslin birinci yarımfəslində bu məsələlər dünya poeziyası ilə sinxron müstəvidə təhlilə cəlb edilir.

İkinci fəslin **"Müasir poeziya və modernist cərəyanlar"** adlanan ikinci yarımfəslində1990-cı illərdən başlayaraq milli poeziyamızda gəlişməyə başlayan modernist cərəyanlardan bəhs edilir.Hər şairdəbu cərəyanların təzühürü nə qədər alınır, milli ölçilərin izi, təcrübəsi burda nə qədərdir? Dissertasiyada müxtəlif nümunələr əsasında bu sualın cavabı, elmi izahı verilir, bir sıra modernist cərəyanlara (simvolizm, impressionizm, sürrealizm) meyillər, kanonik şeir təsəvvürlərini qıraraq fərqli duyğular vasitəsilə yeni zamanın düşüncələrinə, durumuna varmaq cəhdləri yeni dövr poeziyasının əsas təmayülü kimi qabarıqlaşır. Bildirilir ki, modernizm daha çox həyatı olduğu kimi, haşiyəsiz-boyasız təsvir etməyi təlqin edən cərəyandır. Bütün sərt, fəci və dramatik yönləri ilə bədii düşüncənin predmetinə çevrilən həyat ona görə bu qədər cansıxıcı və boz təsir bağışlayır, birmənalı qarşılanmırdı. Doğrudanmi, həyat bu qədər acı, rəngsiz və darıxdırıcıdı? Yoxsa, modernistlər üçün təsvirə çəkilən yalnız bu məqamlardır? Bəlkə anlayışın özündən əvvəlki sənətin inkarında, ənənəvi düşüncəyə etirazın alt qatında məhz, bu amil dayanır? Məsələ burasındadır ki, həyat yalnız romantikadan, hər şeyin yaxşısına hesablanmış nəsnələrin cəmindən ibarət mövcudluq forması deyil. Dünyanın, yaşanan ömürlərin, talelərin "pərdəarxası gerçəkləri" də var... Bu cərəyanı realizmdən, yaxud naturalizmdən fərqləndirən incə fərq, sərhəd də bunda idi. Naturalistlər dünyanı deyil, daha çox onun surətini təsvir edirdilər. Realistlər isə daha çox tənqid, ifşa yolunu tutaraq, ümumiləşmiş şəkildə cəmiyyətin problemlərini qabardırdılar. Modernizm isə daha çox fərdin ifadəsinə, onun individual yaşayışının, düşüncəsinin təsvirinə hesablanmış baxış, dünya-görüş idi. Modernizm özlüyündə obyektivi ədəbiyyatın bərkdən danışmağa o qədər də adət (bəlkə də cəsarət!) etmədiyi tərəflərə tuşlayırdı, underqraund məqamları hədəf alırdı. Amma Espen Hovardsholmun yazdığı kimi: "... bizim görməyə vərdiş etdiyimizi yalnız qeydə alan sənətin mənası

varmı?"[1].Modernist sənət təbii ki, gerçəkliyin stenoqrafı olmaq missiyasından çıxış eləmirdi. Sadəcə, onun predmetinə çevrilən məqamlar o qədər dərinlərə işləyir və onları təbii, natural nüans səhihliyi ilə sərgiləyirdi ki, oxucu çaşırdı: orda özünü, qonşusunun həyatını, rastlaşdığı situasiya və fiqurların portetini görürdü. Modernizm "sırf subyektiv sənət" kredosuna əsaslandığı üçün "fövqəlsavaş" estetikasından çıxış edir, hər şeyi içinin təzahürlərinə enərək mətnə gətirirdi. Onun "içi" isə bəşər naqisliklərindən bezmiş, usanmış ruhun yorğunluğundan qidalanırdı və hər bir mübarizəyə qapalı məcrada manevrlər edirdi. Bu mənada, demək lazımdır ki, modernist estetika həyatın böhranından deyil, daha çox həyata münasibətin böhranından nəşət tapan düşüncə hərəkatı idi. Modernistlər bəlkə ona görə ənənəvi sənətin əleyhinə çıxırdılar ki, onlarda hər şeyin düzələcəyinə inam görürdülər. Çünki hətta realistlər elə güman edirdilər ki, tənqid, ifşa, yaxud maarifçilik yolu ilə dünya düzəninə dəyişiklik edəcək, xariqüladə çevrilişə nail olacaqlar. Modernistlər isə tərəqqidən büsbütün əllərini üzmüşdülər. Hər halı ilə travestik duruma düşən dünyanı harmonik şəklə salmaq onlara görə çətin, hətta mümkünsüz idi. Həyata, cəmiyyət hadisələrinə, insan münasibətlərinə yeni, fərqli münasibət izhar edən, onları olduğu kimi, birbaşa təsvir etməklə deyil, öz içindən, duyğular aləmindən keçirdikləri kimi ifadə etməyə çalışan modernist şeirlərin yarandığı ilk vaxtlarda Azərbaycan sevgisi, itirilmiş torpaq acısı, çağın irəli çəkdiyi gündəm mövzuları əsas təsvir predmetləri kimi mənalanır. Bu şeirlərdə nəinki forma, ritm dəyişir, eləcə də həyat hadisələrinə yönələn baxışların, deyim tərzinin, yanaşma üsulunun özü belə yeni görünürdü.

Ümumiyyətlə, ifa tərzinə, fakta, həyat hadisələrinə yanaşma üsuluna görə yeni dövrün poeziya nünunələrini tədqiqatçılar (V.Yusifli, T.Əlişanoğlu, Q.Bayramov, R.Ulusel, S.Məmmədova və s.) əsasən, bu formada təsnif etmişlər: ənənəvi şeir, eksperimentçi şeir, modernist şeir və avanqard tipli şeirlər. Ümumilikdə isə poetik düşüncə sistemimizin təsnifatı ənənəvi şeirlə modernizə axtarışlarının qarşılıqlı, yaxud bir-birini inkar edən mənzərəsi üstə əyaniləşir. Üst qatda hakim olan etiraz, modernist şeirləri qəbul etməmək mövqelərinə rəgmən alt qatda bu cərəyanların varlığı özünə daha hamar yol açır. Var olmayan bir nəsnə haqda necə bəhs etmək, dartışmaq, fikir mübadiləsi aparmaq olar?! Ortada olan mətnlər daha çox bu mövqeni israr edir.

---

[1]Hovardsholm E. Modernizm. Tarixi-fəlsəfi tədqiqat // "Cahan" jurnalı, 1997, №3, s.90.

Bəhs edilən modernist cərəyanların şeirdə ifadəsi mətnlər üstə əyaniləşdi, reallaşdımı, yoxsa yalnız monifestasiya kontekstində danışmağa rəvac verdi?! Birbaşa deyim tərzinə köklənən ənənəvi şeir, təcrübə xarakteri daşıyan eksperimentçi şeir, eləcə də modernist və avanqard şeirlər yaşarılığında bu gün də israr edir. Sadəcə özünü təsdiq etmə, yaxud tükətmə faktoru ilə. Məsələn, bu gün modernist deyə təsnif olunan şeir 1960-80-ci illərin poetik məkanında eksperiment səciyyəsi ilə seçilirdilər. Zamanı gəldi, özünü təsqid etdi, R.Rzanın poeziyada sərbəst gəzişmələri sərbəst şeiri stimullaşdıran zəminə çevrildi, V.Səmədoğlunun psixoloji yaşamları bütöv bir tendensiyaya yol açdı. Bu gün həmin poeziyadan ənənəvimi deyə bəhs edək, yoxsa modernist şeir deyəmi?! Təbii ki, hər dövrün öz yeniliklər sırası var. Müstəqillik dönəminin yeniliyi Avropa modernist cərəyanlarının poeziyaya axını, tətbiqi (proses başlıca olaraq bu şəkildə gedirdi), təbliği formasında gəlirdi. Önəmli olan nə idi bilirsinizmi?! “Mənim üçün həqiqi poeziya intellektual düşüncəni milli dillə ifadə edən poeziyadı” – yazırdı Bayram Əvəzoğlu[1]. Bax, bütün bu yenilik cəhdlərinin, modernizə axtarışlarının nəhayətində çox az mətnlər həmin zirvə məqamına yüksələ bilirdilər. Ona görə müstəqillik dövrünün poeziyasındakı yeniliklərdən bəhs etmək etiraz doğurur: Avropa cərəyanlarının milli şeirimizə süni şəkildə tətbiqinin civarında yeni poeziya yarandımı ki?! Zənnimcə, yarandı. Bütün uğursuz cəhdlərə, qərb cərəyanlarına ifrat meyillərinə baxmayaraq, müstəqillik dönəminin poeziyası öz keçmişi, kələnəkləri, zəmin aldığı fəlsəfi-psixoloji notlara qədər yeni xarakterli poeziya idi. Ən azı bu poeziyadakı obrazın yaşamları, keçib gəldiyi gerçəklər, fəci yaşantılar sırası, içinin təbəddülatları, əzabları başqa idi və o, poeziyaya yeni bir dünyanın İnsanı kimi qədəm qoyurdu. Ədəbiyyat isə bütün hallarda yeni İnsanla təzələnir.

İkinci fəslin üçüncü yarımfəsli **“Yeni dünya həqiqətləri” və postmodernizmin poeziyada təzahür üsulları”** adlanır. Postmodernizm modernizmdən sonrakı mərhələdir, XX əsrin əvvəllərində yaranmış, özündə bir çox modern dünyabaxışı ehtiva etmişdir. Modernizm ənənədən birbaşa imtina edən, ədəbi-mənəvi dəyərlərə arxa çevirən bir cərəyandırsa, postmodernizm bu dəyərlərdən imtina etmir. Amma bunu tam olaraq konservativ mövqe kimi anlamaq da düzgün deyil, daha çox yeni cərəyanın “bicliyi”, “çoxbilmişliyi” kimi qavramaq daha düzgündür. Postmodernizm ənənədən imtina yolu tutmur, keçmiş irsdən, keçmiş dəyərlərdən daha çox

---

[1]Əvəzoğlu B. Yeni şeir konsepsiyası // “Azərbaycan” jurnalı, 1998, №6, s.180.

ironik kontekstdə yanaşma ilə bəhrələnir. Klassik ədəbi-mədəni sərvət dekonstruksiyaya məruz qalaraq mətnlərə gətirilir və yalnız bu halda onunla bağ yaratmağa cəhd olunur.

Postmodernist Umberto Eko yazır ki, "postmodernizm təsbit olunmuş xronoloji hadisə deyil, hansısa bir mənəvi durumdur" və "hər bir dövrün öz xüsusi postmodernizmi var" [1]. Buradakı "mənəvi durum" ifadəsi cərəyanın özəlliyini görükdürmək baxımından önəmlidir. Posrmodernistlər üçün dünya da, kainat da səthi anlayışlar idi. Onlar sanki dünya işləklərindən bezmiş, usanmış, yorğun qəhrəmanlar idilər və bütün bəşəriyyət onlar üçün haqqında düşünülməyə dəyməyən puç və əfsanə idi. U.Ekonun "mənəvi durum" təsnifinin mayası buradan qaynaqlanır. "Postmodernizmə görə, dünyanın səthi, eyni zamanda sintetik inikasını insan şüurunun mahiyyəti təşkil edir. Ona görə də bu təlim iddia edir ki, "dünyanı başa düşmək yox, qəbul etmək lazımdır"[2]."Mənəvi durum" (U.Eko) olan postmodernizm üçün hibridləşmə, yaşanılan keçmişin çağdaşlıq içində aktuallanması, çağdaş mətnlərə yeridilməsi, onlarda əriməsi kimi keyfiyyətlər səciyyəvidir. K.Yaspers qeyd edirdi ki, "keçmişə müraciət bizi insan varlığının sirlərinə yaxınlaşdırır"[3]. Postmodernizm isə keçmişi daha çox "təcrübələr məxəzi" kimi dəyərləndirib onu çağdaş mətnlərə yeritməyi düşünürdü. Bu istək postmodernistlərin daha çox mifə qayıdışı, onu bu günün müstəvisinə proyeksiyalamaq cəhdində realizəsini tapırdı. Amma qeyd etdiyimiz kimi, dekonstruksiya yolu ilə, ona qədər olan dəyərləri astar üzünə çevirmək, təftiş etməklə yeni dünyabaxış istiqaməti formalaşdırmağa çalışırdı. Bu "çevrilmə" prosesi həm də dilə münasibətdə, dil qanunlarının öyrəşdiyimiz anlamda "səlasəti" məsələsində də dəyişikliklər yaradırdı və dünyaya baxışda səthilik, özünəməxsus obraz və anlayışlar sisteminin varlığı, postmodernist dekonstruksiya, xüsusilə miflə bağlı yeni işlənmələr sırası dillə bağlı da müəyyən dəyişikliklər etməyi zəruri edirdi. Əslində, ən son düşüncə modeli olan postmodernizm özündə ona qədər olan bilgiləri, elmi və mifoloji konteksti ehtiva edirdi, daha doğrusu, bunları içindən keçirib, yaxud içindən keçib metapozisiya yaradırdı. Özünə qədər mövcud olmuş elmi arsenal, o cümlədən mistik-ezoterik təlimlərlə tanış olan postmodernizm ilk növbədə, onların təftişi,

---

[1]Эко У. Пять эссе на темы этики. М., СПБ., 2000, s.87.

[2]Əsədova A. Xaos və harmoniya. Postmodernizm və təsəvvüf. 525-ci qəzet, Bakı, 2012, 29 noyabr

[3]Ясперс К. Смысл и назначение истории: Пер. с нем, -М.:Политиздат , 1991, s.51.

növbənöv modifikasiyalara uğratması ilə başlayırdı. Bu isə artıq modernizmdən fərqli olaraq inkar deyildi. Əksinə, burada elmi biliklərlə mifoloji, mistik-ezoterik düşüncə qatının hibridləşməsi baş verirdi.

Niyə bizim milli ədəbiyyatımızda bu cərəyanın funksionallığı daha çox müstəqillikdən sonrakı dönəmə sirayət elədi? Yalnız ona görəmi ki, sovet imperiyası qapını hər cür cərəyanın üzünə qapamışdı?! Bəlkə həm də ona görə ki, milli ruhun bunu anlayıb qavraması, mənəvi durum olaraq yaşaması gərəkirdi. Bəli, məhz milli müstəqillik illəri özü ilə poeziyaya postmodern dalğanı da gətirmiş, gəlişdirmiş oldu. Amma anlayışın səhti qavramı, onun daha çox xaos tipizasiyası ilə - keçmiş ədəbi-mənəvi dəyərlərdən imtina, bədii irsə ironik yanaşma, ifrat aqressivlik, bütləri dağıtmaq amacından zəminlənən klassik və sovet dövrü yazarlarının ədəbi irsini bir qələmlə silib atmaq istəyi və s., və i. – anlayışı anarxiya səviyyədə qavramaq probleminin nətisələri idi. Əlbəttə, olsun ki, postmodernizm elə anarxiyadır ki, var. Şüurda, yanaşmada, mətndə anarxiya. Amma bu mətndə realizə olunacaq bir xaos olmalı idi. Keçmişin dekonstruksiyası da, mövcud mətnə yeni yozum vermək cəhdi də yalnız ona alternativ təklif edən mətn sayəsində mümkün ola bilərdi.

90-cı illər poeziyasında isə postmodernizm mətnlərdə gerçəkləşdirilməkdən daha çox manifestasiyalarda, isterika ilə yüklənmiş yanaşmalarda əksini tapırdı. Bu cəhd əsasən gənc ədəbi nəslin yazılarında daha çox özünü büruzə verirdi ki, sonucda onların bir çox dəyərlərə - vətən, Tanrı anlayışına, milli-mənəvi dəyərlərə münasibətdə nihilist mövqe hakim olurdu. Məsələn, müasir ədəbiyyatda Qarabaq mövzusu əsasən ağrı, faciə kimi anılır. Lakin postmodern ruhunda yazılmış şeirlərdə Qarabağ mövzusuna münasibət dəyişir, yaşlı nəslin kökləndiyi mübarizə, üsyan xarakterli şeirlərdən fərqli olaraq, mövzuya münasibətdə pessimist əhval-ruhiyyə, ironik yanaşma sərgilənir. Bu şeirlər minor motivlərlə ifadə edilməkdən daha çox, prosesə loyal baxış və inamsız əda ilə seçilirlər: "Gəlin erməniyə verək torpaqları/müzakirəsiz filansız/cıdır düzündə məzə partlatsın/baldırıaçıq haxçılər/əsir düşmüş gəlinlərimizlə /rahatca əylənsin qoyungöz dığalar/babalarımızın qəbrini şumlayıb/yerində andronik bağı salsınlar"[1].Müharibədə itirdiklərimizin acısı, barışa bilmədiyimiz torpaq talanı, alışa bilmədiyimiz qaçqınlıq, köçkünlük faciəsi psixoloji gərginlik və mənəvi deqradasiya doğurur. Gənclər həmin məqamları, içlərindən keç(ir)dikləri acıları təqib qılaraq onları haşiyəsiz-boyasız poetik mətnə

---

[1]Ağayar Ş. Səhra məsnəvisi. Bakı: Vektor nəşrlər evi, 2003, s.38.

gətirirdilər. O yerdə ki, uğrunda vuruşduğun ideallarin çökdüyü məqam gəlir, dərin insan böhranı başlanır. Gənc şairlər bu mövzunu postmodern formada təsvir predmetinə çevirməklə, həm də ona münasibəti yeni sınaq qarşısına çıxarırlar: yeni cəmiyyətdə müharibə insanının mövqeyi necə görünür, o yenədəmi erməni məkri önündə güzəşt edir?! Faktura və problematika müasirlikdən, keçib gəldiyimiz çağdaş və hələ də diri qalan problemlərimizin aktuallığından nəşət edir.

90-cı illərdən başlayaraq şeirdə baş verən dəyişikliyin içindən Tanrı obrazına münasibətin özündə də müəyyən təbəddülatların olması nəzərdən qaçmır. İlk baxışda, insan idrakı sanki qəbullanmaq istəmir, gedən dəyişikliklərin içərisindən Tanrı mövzusunun da qabarması, daha doğrusu, ona inkarçı münasibət ağlasığmaz görünür. Axı adətən, daha çox sınağa çəkilən ruhun, fəci durumlara mübtəla olmuş toplumun ehtiyacı olur Tanrıya. 90-cı illər də bu baxımdan, ədəbiyyatımızın sınaq dövrləri idi. Halbuki A.Karrelə görə "İnsan oğlu Allaha bütün dövrlərdə hava-su kimi ehtiyac duyubdur"[1]. Bu həqiqətən belədirmi? O zaman 90-cı illərdən başlayaraq, poeziyada özünü göstərən Allahın ilahi başlanğıc olmasından imtinanı necə xarakterizə edək?

Dünya kontekstindən yanaşanda bu, Qərb düşüncəsində mövcud, getdikcə möhkəmlənən Tanrısızlıq, insanın fərdi duyğularının önə çəkilməsi, yalnız özünə istinad etmə dalğasının bir təzahürü olaraq qabarırdı. Bildiyimiz kimi, sovet ideologiyasının hökmfərma olduğu illərdə, özəlliklə 20-30-cu illərdə Tanrıya, dinə, müqəddəs kitaba münasibətdə nihilist mövqe sərgiləyən mətnlər, yanaşmalar ortaya qoyulurdu. Lakin 20-30-cu illərdə Tanrıya qarşı çıxma ədaları yalnız bununla bağlı deyildi, proletkulçuluğun yarıtmaz tələblərindən biri idi. Dinin tiryək kimi qadağasına başlanmışdı və proses yalnız islam dini ilə bağlı aparılmırdı, Rusiya dövlətinin özünün dini dünyagörüşünə də qarşı çevrilmişdi. Sovet rejimi Allahı, dini ironiya, inkar predmetinə çevirməklə guya ki, mövhumatın kökünü kəsməyə cəhd edir, maarifləndirici təbliğat aparırdılar. Əslində, səbəb başqa idi. Deyək ki, Şərq insanı üçün Allah məfhumu möhkəm özüllü istinadgahlardan biri sayılırdı və ona qarşı çıxmaq tələbi xalqın milli-mənəvi dəyərlərinə, "Quran"ına, "Kitabi-Dədə Qorqud"una, əlifbasına, milli kimlik və keçmişinə atılan daş qədər vacib sayılırdı. Tanrısından, müqəddəs kitabından və keçmişindən qoparılan xalqı və milləti isə diz çökdürmək asan idi. Amma məlumdur ki, bu tendensiya

[1]Bəydili (Məmmədov) C. Çağın Tanrısızlaşdırılmağı. Ədəbiyyat qəzeti, Bakı, 2015, 23 yanvar

çox da uzun çəkməmiş, yazarlarımız sosial bərabərlik, qardaşlıq şüarını bədiiyyatın leytmotivinə çevirməklə ateist düşüncədən uzaqlamağa çalışmışlar. Lakin bu mövzuda yazmaq cəsarətli olmağı tələb edir, müəyyən qorxu, çəkingənlik hissi doğurur, sənətkarları ehtiyatlı davranmağa sövq etdirirdi. Milli poeziyada bu tendensiyanın əlamətləri 40-cı illərə qədər davam etdi. Düzdür, o zamana qədər də müəyyən istisnalar nəzərə çarpırdı. Deyək ki, 1937-ci ildə yazdığı "Səadət nəğməsi" şeirində "Xəbərdar eyləyin Ərəbistanı/Ocaqda yandırdı anam Quranı", yaxud "Ayrilmış qoca Şərq təvəkkülündən..."[1], - yazan Səməd Vurğun eyni ildə yazdığı "Vaqif" dramında Vidadinin dili ilə Allaha səslənir, insanlığın düçar olduğu fəlakətlərdən qurtuluş üçün ona üz tuturdu: "Xudaya! İnsanın halı yamandır/ Nələr çəkdiyimiz sənə əyandır!"[2]. Qırıq-qırıq gözə dəyən belə münasibətlər 40-cı illərin sonlarından başlayaraq poeziyada nisbətən, daha çox nəzərə çarpmağa başladı. Bu qorxunun aradan çıxmasında müharibə amilinin böyük rolu oldu. Müharibəyə yaxınını yola salan, yaxud onun itkisi ilə üzləşən insan Allaha ümidini, duasını, yalvarışını ünvanlayır, onda ovunur, təsəllisini tapırdı. Artıq ümumxalq etiqad səciyyəsi daşıdığından dövlət bu münasibətə o qədər də dərindən nüfuz edə bilmirdi. Amma bu insanla Tanrı arasında fərdi hisslərin önə keçdiyi zaman deyildi. Şairlərin Tanrı ilə münasibətlərinin məhrəm müstəviyə adlaması prosesi sonrakı onilliklərdə - 60-80-ci illər poeziyasında mümkün oldu. Bunun üçün bircə səmimi müraciət kifayət etdi: "Mən burdayam, İlahi!" (V.Səmədoğlu)

60-80-ci illər şeirində Tanrı son məqam, son "şans" səciyyəsi daşıyırdı. Talelərindən şikayət edən, həyatın faniliyi, dünyanın işləklərindən ümidsizliyə yuvarlanan şairlər son sığınacaq kimi Tanrıya üz tuturdular. Bu şeirlərdə Tanrı hələ də ümid, istinadgah, dua, yalvarış mənbəyi statusundadır. Şairlər onlara yazılan yazıdan, qəzavü-qədərdən bezir, əzablardan təngə gəlir, belə bəxt yazan Tanrıya etiraz ünvanlayır, amma onu inkar etmirdilər. Bu şeirlərdə Tanrı ən ali obraz kimi görünə bilirdi. Məsələn, V.Səmədoğlu, R.Rövşən V.B.Odər şeirində Allaha inam insana inamdan daha öndə idi. Daha sonra, 80-ci illərin əvvəllərində B.Vahabzadənin yazdığı "Fəryad" pyesində Allaha müraciətin xəfif qatına keçilir, Tanrı ilə bağlı hər cür sakral düşüncələr praqmatik müstəviyə adlayır, öz motivasiyasını şairin "insanlıq" fəlsəfəsində tapırdı:"İdrakda yol açmış gecədən gündüzə Allah!/Güldürməsən öz könlünü gülməz üzə

[1]Vurğun S. Əsərləri. 6 cilddə, I cild. Bakı: Azərbaycan EA nəşriyyatı, 1960, s.252.
[2]Vurğun S. Əsərləri. 7 cilddə, IV cild. Bakı: Elm, 1988, s.7.

Allah!/Dünyaya şəfəqlər kimi tanrım səpələnmiş. /Qəlbin gözü yanmazsa görünməz gözə Allah!”[1]

Postmodernist gənclər isə yaşadıqları cəmiyyətin neqativ tərəflərini göstərməklə kifayətlənməyib, Tanrıya münasibətdə belə müqəddəslik pərdəsini yırtmağa cəhd etdilər, “yer üzünün əşrəfi insandır!” modelini yenidən, bu dəfə fərdi duyğularının qanadında poeziyaya gətirməyə, tətbiq etməyə başladılar. Həmin fərdi duyğuların, yaşanılan acıların arasında isə Tanrıya ayrılan yer çox cüzi idi. O yeri də şairlərin dua, tapınma xüsusiyyətlərindən daha çox ironik, nihilist, yad yanaşmaları istila eləyirdi. Ötən əsrin 60-cı illərində E.Fromm (1900–1980) yazırdı: “XIX yüzildə problem bu idi: “Tanrı öldü!”. XX yüzilin problemi isə budur: “İnsan öldü”... Dünənki təhlükə insanların kölələşdirilməsi idisə, sabahın təhlükəsi insanların robotlaşmasıdır. Doğrusu, robotlar baş qaldırmaz, üsyan etməzlər. Amma insan fitrəti daşıyan robotlar laqeyd də qala bilməzlər. Çünki anlamsız bir həyata çox dayanıb-dözmək olmaz”[2]. Amma bu kontekstdə bir məsələ də özünü doğruldur. Tanrı-insan ölümünün labüdləşməsində başqa səbəblər aramağa lüzum qalmır. Onlardan biri digərini yetirən əsas səbəb kimi çıxış edir. Tanrısını öldürən, ona lüzum görməyən, uşaqlaşan cəmiyyət özü-özünü məhvə sürükləşmiş olur. Çünki insan Tanrıdan üz çevirdiyi kimi, Tanrı da ondan üz çevirir. Allahın yolundan çıxdıqca insan da onun yadından çıxır, insan Allahdan qopduğu, onu yad sandığı kimi Allah da nəzərlərini onun üstündən çəkir və nizamsızlıq başlayır. “XIX əsrin sonlarında Allahı itirən insan XX əsrin sonlarında özünü itirdi. İlahi dəyərlər dəyərsizləşdikcə insani dəyərlər, humanist ideyalar da aradan çıxmağa başladı. Bəşəriyyət tam bir heçlik, mənasızlıq uçurumuna yaxınlaşdı. Onun itirdiyi ilahi dəyərlərin yerinə qoyduğu heç bir bəşəri nailiyyət – elm, texnika, iqtisadi inkişaf və s. bu dəyərləri əvəz etmək iqtidarında deyil”[3]. Postmodern epoxasının özü ilə gətirdiyi yeni dünya modelindəki nizamsızlığın əsas nədəni bu amillə bağlı idi ki, düşüncədə, əxlaqda, sənət meyarlarının dərkində çaşqınlıqlar yaratması ilə sonuclandı.

Problemlər ondan qaynaqlandı ki, postmodern düşüncə İnsan amilini gücləndirib onu bütün başlanğıcların adı elan edərkən bu vacib məqamı unutdu. Məsələn, 90-cı illərin əvvələrində yazdığı “Qardaşlar” şeirində Murad Köhnəqala öz nəsildaşlarının acınacaqlı taleyini canlandıraraq

---

[1]Vahabzadə B. Seçilmiş əsərləri. Bakı: Öndər, 2004, s.227.

[2]Bəydili (Məmmədov) C. Çağın Tanrısızlaşdırılmağı. Ədəbiyyat qəzeti, Bakı, 2015, 23 yanvar

[3]Əsədova A. Ədəbiyyatlaşan dünya. Bakı: Elm RNPM, 2014, s.20.

Tanrıya üz tutsa da, bu müraciət öz pafosu ilə fərqlənir, "Tanrıya əl qaldırmaq" dərəcəsinə gəlib çatmış insanlığın tarixi faciəsini şeirə gətirirdi: "....niyə dizinə çırpır əllərini bu dəniz?/ Bu dəli , zəmanənin hansı üzündə qalıb?- /Tanrım, geriyə çəkil, əl qaldırar bəndəniz!".[1]

90-cı illərin sonlarında meydana çıxan bu tendensiyanın rüşeymləri dünya konteksti ilə birbaşa əlaqələnirdi, ideya qaynağı Qərb cərəyanlarının manifestləri idi. "Allaha inam Yeni dövrdən itməyə başladı, insan özünə inandı. Ötən əsrdə bu özünəinam da itməyə başladı. Çağdaş insanın dayaqlandığı nəsə bir mərkəzi istinad nöqtəsi yoxdur. O, Allahı sevmir, millətə gülür, özünə ironiya edir... onun bütün fikirlərində bir ikibaşlılıq var. Çünki bütün ünvanlar rədd ediləndən sonra üz tutulası yer yoxdur. O, qalın düşüncə cəngəlliyində hara gəldi gedən adamı xatırladır. Onun məqsədi cəngəllikdən çıxmaq deyil, çünki belə bir çıxış nöqtəsinin mövcudluğuna ümumən inanmır"[2]. Bir zamanlar Nitsşe özünün həyat fəlsəfəsi ilə "Allahın öldüyünü" bəyan edir, bununla da bəşəriyyətin irəliyə doğru hərəkətində revanşist dönüm yaratdığını düşünürdü. Birinci Dünya müharibəsindən sonra bütün bəşəriyyəti sarmış dekadans ovqatın yetişməsini şərtləndirən məqamlardan biri də məhz, həmin dünyabaxışın güclənməsi ilə əlaqədar idi. "Allah ölmüşdür" - bu artıq yeni dövr reallığında bütün fəlsəfə və humanitar fikrinin istinad etdiyi Nitsşe sindromu idi. Fransız yazıçısı A.Malro 1927-ci ildə yazırdı ki, "insanın hər şeyi əhatə edən, zəbt edən intəhasız ehtiras və həvəsi əvvəllər daxilində Allah üçün ayırdığı yeri belə ələ keçirir"[3]. Əslində, Nitsşenin "həyat fəlsəfəsi"nin əsasında fövqəl-insan amili dayanmış, o, insanların "şeyə" çevrilməsinə, mədəniyyətin, tarixin perspektivlərinin tükənməsinə qarşı durmuş, "Çoban yoxdur, təkcə sürüdür ki, vardır! Hamı eyniyyətə can atır, birdir hamısı: başqa cür düşünən könüllü olaraq dəlixanaya gedir"[4] kimi fikirlərlə "kütlə"yə çevrilən insana alternativ olaraq fövqəl-insanı təqdim etmişdi. "Zərdüşt belə demişdir" əsərində o, yazırdı: Mən insanlara, onlara onların varlığının mənasını anlatmaq istəyirəm: bu məna fövqəl-insandır, insan adlı qara buluddan çıxan şimşəkdir fövqəl-insan"[5]. Bu yanaşma postmodernistlərin baxışlarında da var. "Hamının eyni düşündüyü yerdə heç kəs düşünmür" fikrini təqib qılan postmodernistlərin bəzi gözlənilməz addımları şüurdakı ətaləti, eyniyyəti aradan qaldırmaq, düşüncəni hərəkətə

---

[1]Bax:Mustafa N. Şeytan qulluğundan Tanrı dərgahına // "Cahan" jurnalı, 1997, №2, s.53.
[2]Cahangir Ə. Kim yatmış, kim oyaq. Bakı: Yazıçı, 2012, s.87.
[3]Мальро А. Зеркало лимба. Москва: Прогрес, 1989, s.41.
[4]Фридрих Н.Сочинения в 2-х томах, т.2, Москва: Мысль,1990, s.12.
[5]Фридрих Н. Сочинения в 2-х томах, т.2, Москва: Мысль,1990, s.14.

gətirmək səciyyəsi daşıyırdı. Fəqət onların problemi bunda idi ki, insanların əsrlər boyu kökləndiyi, tutunma səbəbləri olan dəyərlərə qarşı çıxmaqla şüurda inqilaba can atacaqlarına ümid edirdilər. Bu isə müəyyən formalarda təsirini göstərmiş olsa da, ümumən tutalğası olmadığından özünə yer eləmir, eləcə bir iz, dalğa olaraq gəlib keçirdi. Hər halda, bu gün bəşəriyyəti sarmış olan çoxyönlü problemlərin kökündə həmin amilin – Tanrıdan uzaqlaşmanın, Allah ideyasının aradan çıxmasının və insanın öz məntiqinə həddən ziyadə arxalanmasının rolu böyükdür. Bu güvənc onda müvazinətsizlik yaradır, səmti itirən karvanbaşı kimi hara istiqamətlənəcəyini müəyyən edə bilmir. 90-cı illər postmodern şeirində mövcud "mərkəzdənqaçma tendensiyaları" da həmin qlobal miqyaslı insan çaşğınlığının nəticəsi idi.

Digər mühüm amil, postmodernistlərin milli-mənəvi dəyərlərə münasibəti ilə bağlı üzə çıxır ki, tədqiqatçı bu məsələyə bir qədər geniş aspektdə yanaşma sərgiləmişdir. Qeyd etmişdir ki, XX əsrin əvvəllərində "yeni şeir" manifestasiyaları ilə çıxış edən aydınlar klassik bədii təcrübəni, xalq danışıq üslubunu, səlis təhkiyəni nə qədər üstün tuturdularsa, 90-cı illərdə folklor, ağız ədəbiyyatına müraciətlər "tərəkəmə ədəbiyyatı" deyə ələ salınır, onlar dünya ədəbiyyatına çıxış üçün yararsız elan edilirdi: "Biz bugünün milli-ədəbi estetik valyutasını yaratmayana qədər bu sahədə daha güclü olan xalqların ekspansiv təsirinə məruz qalacağıq. Haqqında danışdığım ədəbi valyutanın dünyanın hər hansı bir ölkəsində eyni dəyəri olmalıdır. Əlbəttə ki, XIX əsr tərəkəmə folkloru üslubunda gəraylı, qoşma və tərkibbəndlərlə biz dünya olimpində öz bayrağımızı dalğalandıra bilməyəcəyik"[1]. Göründüyü kimi, burada poeziyanın sabahına doğru hesablanmış yenilikçi təmayül onu dünənli təcrübəsindən silmək niyyətindən hasilə gəlirdi. İroniya predmetinə çevrilən "Tərəkəmə folkloru" ifadəsi hər şairin keçib gəldiyi, şeir yolunun ilkinliyi, saflıq mərhələsidir. Bu yol bütün xalqların poeziyasında vardır və zənnimcə, o, heç də dünya poeziyasının hüdudlarında gəzişmələr etməyi əngəlləmir. Əksinə keçmişini, ənənə yükünü özündə daşıyan, "yaddaş hasarı"nı (F.Sadıq) qoruyub saxlayan poeziya yeniliklər etməyə daha qabil poeziyadır. XX əsrin görkəmli filoloqlarından olan M.M.Baxtin bu xüsusda yazır: "hər zaman irəli doğru atılan hər bir əhəmiyyətli addım geriyə qayıdış ilə müşaiyət olunur, daha dəqiq desək, başlanğıcın (mənşənin) yenilənməsinə gətirib çıxarır. Yalnız yaddaş irəli doğru gedə bilər,

[1]Qaraca R. Ədəbiyyatın alternativ birliyi yarandı. "Azadlıq" qəzeti, Bakı, 2001, 8 may

unutqanlıq yox. Yaddaş kökə qayıdır və onu yeniləndirir. Əlbəttə, «irəli», «geri» terminlərinin özü də bu mənada öz qapalı mütləqiyini itirirlər və daha çox öz qarşılıqlı təsirləri nəticəsində hərəkətin canlı paradoksal təbiətini ifadə etmiş olurlar”[1].

Qeyd edək ki, klassiklərə qarşı yönələn bu hücum yalnız Azərbaycan ədəbiyyatı üçün deyil, bütün postsovet məkanı üçün xarakterik hadisə idi. 90-cı illər rus dövrü mətbuatı ilə tanışlıq klassik irsə münasibətdə analoji yanaşmanı ortaya qoyur. Burada da məsələnin qabarması eyni cürdür. Rusiyanın XX əsrdəki tənəzzülündə əsas günahkar ədəbiyyat hesab edilir, bütün cəmiyyət miqyasında baş verən dramatik olayların səbəbkarı ədəbi irsin nümayəndələri sayılırlar. Dissertasiyada bu məqam Azərbaycan və rus ədəbi mühitinin müqayisəsi kontekstində araşdırılmışdır.

Üçüncü fəsil **“Çağdaş şeir və milli “izm”** adlanır. Bu fəslin **“Yeni düşüncə və bədii-estetik dəyərlər”** adlanan ilk yarımfəslində qabardılır ki, 90-cı illərdən bəri şeirimizdə güclənən modernist başlanğıclar, bir-birini əvəzləyən forma axtarışları, ideya-bədii müxtəliflik nəticəsində milli poeziyamız çoxyönlü təbəddülata uğrasa da, bütün yenilik cəhdlərinin qarşısına milli poeziyanın kələnəklərinə sadıq qalaraq – hecalı şeirin ən gözəl nümunələrini, qoşmasını, gəraylısını yaradaraq çıxan şairlərimiz də oldu. Araşdırılan dövrdə müharibə mövzusunun daim diqqətdə saxlanması, dünyanın Qarabağ dərdinə etinasızlığına, laqeydliyinə şairlərin etirazı, itirilən torpaqlara, üzləşdiyimiz milli faciələrimizə poeziyanın münasibəti baxımından B.Vahabzadə, Z.Yaqub, Qabil, X.R.Ulutürk, F.Mehdi, F. Sadıq, H.Kürdoğlu, F.Qoca, S.Rüstəmxanlı, F.Məmmədli, Ə.Quluzadə və başqalarının yaradıcılığı əsas rol oynamışdır.

90-cı illər şeirində baş verən bir sıra mühüm yeniliklər bədii-estetik dəyərlərə yeni(dən) baxışı aktuallandırdı. “Çağdaş şeir” necə olmalıdır, milli poeziyanın imkanları bu çağdaşlığı əks etdirəcək qədər gücdə buluna bilirmi? Dünya bədii-estetik cərəyanlarının poeziyamıza axını qarşısında “milli izm”də yazıb-yaradan şairlər hansı poetik yeniliklərə açıqdırlar? Əslində, dünyaya yol necə başlayır ki?! Yenilik istəyiriksə, ilk növbədə milli olmağı bacarmalıyıq, dünyaya ona bəlli olan və dəfələrlə sınanmış təcrübələrlə keçib getmək olmaz, bir qədər də özündən, təmsil etdiyin xalqın, ədəbiyyatın təcrübəsindən qatmağa çaba etməlisən.

Üçüncü fəslin ikinci yarımfəsli **“Ənənəvi mövzulara yeni baxış”** adlanır. Bu yarımfəsildə müstəqillik dönəminin müasir poeziya palitrasının

---

[1]Бахтин М.М. Эпос и роман// Бахтин М.М. Вопросы литературы и эстетики. М., 1975, s.433.

yaranmasında iştirak edən nəsil və fərdlərdən bəhs edilir. Bir qism şairlərin ənənəvi-realistik, lirik-romantik üslubda yazdıqlarını dəyər qismində prosesə qatmağı, bir qisminin isə zamanla uzlaşmağa can ataraq poetik güclərini, nəfəslərini yeni ritmə kökləməsilə əyaniləşdirdiyi poeziya nümunələrinin bədii təsvir predmetləri dissertasiyada belə təsnif olunur: a)Tanrı, məşhər günü, səmavi düşüncələr insanın təklikdən, tənhalıqdan təcrid olunub ali mütləq həqiqətə çatmaq üçün üz tutduğu müqəddəs mehrablardır; b)azadlıq, hürr duyğuları, müharibə ovqatı, vətənpərvərlik ideyalarının təbliği şeirimizin patriotik qolunu səciyyələndirən başlıca amillərdir; c)ağac, quş, kəpənək, çiçək, daş paklıq və təmizlik rəmzi kimi mənalanan simvollardır; d)ənənəvi sevgi, məhəbbət mövzuları da öz yerində.Bu dövr poeziyasında funksional olan mövzular isə başlıca olaraq aşağıdakı kimi təsnif edilir: a)Müharibə mövzusu və onun doğurduğu bütün problemlər kontekstində qabaran ideya, obrazlar qalereyası; b)Vətən mövzusu; azadlıq, hürr duyğularının vəsfi; c)İnsanın mənəvi təkilyi, tənhalığını rəmzləndirən şeirlər; d)Təbiət mövzusu, e)İkiyə bölünmüş Azərbaycan probleminin şeirdə davam edən acısı, ə)Sevgi şeirləri. Tədqiqatın bu yarımbölümündə poeziyada aparıcı xətti təşkil edən hər mövzuya ayrıca yanaşılımış, ətraflı şərhinə varılmışdır.

**“Çağdaş poeziyanın ideya-bədii xüsusiyyətləri”** adlanan dördüncü fəslin “**Poeziyada yeni forma, məzmun və ideya-bədii axtarışlar müxtəlifliyi. Lirik qəhrəman problemi”**ni qabardan ilk yarımfəslində 90-cı illər poeziyasının uğradığı yeni forma və məzmun keyfiyyətlərindən bəhs edilir. Dünyaya və ölümə münasibətin dəyişməsi, şeirdə daha ekspressiv boyaların üstünlük təşkil etməsi, çöküş, tənəzzül məqamlarının başlanğıc götürməsi əsas məzmun keyfiyyətləri kimi xarakterizə olunur. Bildirilir ki, poeziyanın estetik çaları, onun zövq yaşatmaq xüsusiyyəti daha çox şüuraltını oynatmaq, fikri dolaşdırmaq, çaşdırmaq kimi oyun estetikası ilə əvəzləndi. “Oyun” simvolikasına köklənmiş poeziyanın zatən ciddi təsir bağışlamaq gücü də zəifləməyə başladı. Ölüm, tənhalıq kimi məqamlarda poeziyanın nüfuzu daha dərinlərə işləsə də, bu artıq vahimə, xof yaratmır, təbii çalarından uzaqlaşıb bəlkə daha çox “qurulmuş” nəsnə təəssüratı doğurduğundan “ürək hadisəsi” olmaq orbitindən çıxıb “məntiqi oynatmaq” hadisəsi kimi təzahür edirdi. Daha dəqiq desək, 90-cı illər şeirində şeirdə yaranmağa başlayan forma dəyişiklikləri məzmun hadisəsini də doğurur, dəyişdirir, onun da yeni biçimdə meydana çıxmasını şərtləndirirdi. Həmin forma dəyişiklikləri hansılar idi?

90-cı illər şeirində forma dəyişiklikləri daha çox dünya cərəyanlarının poeziyaya tətbiqi fonunda baş verirdi. “Poetik təfəkkürü vizual və virtual təsir “uçurumuna” uğratmaq, forma yeniliyi əldə etmək üçün (dünya

ədəbiyyatının keçdiyi, amma bizim ədəbiyyatda yeni olan) eksperimentlərin tətbiqinə çalışmaq, müasir rus və keçmiş sovet məkanından olan bir çox ölkə ədəbiyyatlarının maraq göstərdiyi "poeziyada parnoqrafiya elementləri"nın az da olsa tətbiqinə çalışmaq kimi meyillər"[1].

Bu yarımfəsildə Salam Sarvanın şeirimizə gətirdiyi yeni ab-hava, əsas forma dəyişikliyi təhlil olunur, onun yaradıcılığındakı güclü ironik çalarlar şeirin əsas məzmun keyfiyyəti kimi nəzərə çarpdırılır. Bu ironiyada cəmiyyət də, onun neqativləri də aydın görünürdü. Əhməd Cavad şeirlərinin birində "Böylə göz yaşıyla keçən ömrümün, Sonunda bir acı güləcəyəm bən!" – yazırdı. 90-cı illər şeirinin üsyan, barışmazlıq, ruhun çıxılmazlıq əzablarına qarşı etirazı həmin "acı gülmək" formasında üzə çıxırdı. Sükutun səsi, əzabın səssiz fəryadı, susdurulmuş hayqırışlar şəklində. Gərdişə, taleyə, həyata, dünyaya, ölümə, hətta Tanrıya belə ironiyanın pik həddinə çatmış bu poeziya özündən sonrakı bütün prosesə təsir göstərmiş oldu. Salam şeiri də 90-cı illərin şeir havasına yeni nəfəslə daxil oldu, bütün poetik havanı dəyişdirdi, poeziyanın ritmini, ahəngini, bədii mənzərəsini, ovqatını başqa səmtə yönəltdi. Düzdür, bəzən həmin pozitiv təsir gələcək neqativlərin də doğuluşuna yol açdı. Bu şeirlərin təsirinə qapılmaların sayı getdikcə artmağa başladı, şeir daha çox eyni havanın iqlimində dolaşmağa səmtləndi. Bunu təbii hal saymaq lazımdır. Bütün yenilikçi addımlar nəhayətində, ona dönüşləri, ona qapılmaları, ətrafında dövr olunmaları labüdləşdirir. Füzuli şeirinin sehrinə tutunan nə qədər epiqonçu şair yetişmişdi?! Ki, yalnız üç əsr sonra bu tilsimi qırmağa Axundov dühasının gücü çatmış, istəyinə müvəffəq olmuşdu. Demək istədiyimiz odur ki, yeni şeir ardınca böyük bir ordunu gətirmiş, gəlişdirmiş olur. Poeziyanın Salam hadisəsindən sonra Əlizadə Nurinin, Böyükxan Pərvizin, Balayar Sadiqin, Səhərin şeirlərində konsruksiyaya meyilin əlamətləri, fikrin konstruksiyası ilə şeir yazma meyilləri əsas üslübi keyfiyyətlər kimi önə keçməyə başladı. Poetik detalların eyniliyi, oxşar məcaz və epitetlərdən yararlanma, eyni simvollara müraciət – mahiyyət olaraq başlanğıc məqama dayanıqlı idi, yeni forma və məzmun keyfiyyətində hasilə gələ bilmirdilər. Şairlərin bilərəkdən mücərrədçiliyə meyili, bu kontekstdə ifrata varmaları, şeiri daha çox fəlsəfi ideyalarla yükləmək, lakin bu ideyaları bədii formada təqdim etməyə, müəkəmməl ideya ətrafında mükəmməl bədii mətn qurmağa nail olmamaq, əvəzində "töküb dağılan", bir-biri ilə assosiativ əlaqələrlə bağlılığı zəif olan hadisələrin nəqli ilə kifayətlənmək bu şeirlərin əsas göstəriciləri idi. Fikrin

---

[1]Cabbarlı N. Yeni nəsil ədəbiyyatı. Bakı: Elm, 2006, s.10.

konstruksiya yolu ilə ifadəsinə köklənmiş şeirlərdə “oxşarçalarlıq” şairlərin fərdi “mən”i ilə görünməsini əngəlləyən nəsnələr sırasına daxil idi. Hətta poeziyaya yeni gələn gənc ədəbi qüvvələrin şeirlərində də bu təsirin izləri aydın nəzərə çarpır, “dünya” müraciətləri üstə qurulan şeirlər eyni qəlibdən çıxmaq təəssüratı doğururdu.Bu yarımfəsildə müəyyən nümunələr əsasında poeziyamızdakı ideya-bədii axtarışlar müxtəlifliyinə, məzmun yeniliklərinə diqqət yönəldilmiş, habelə heca şeirinin tənəzzülü, poeziyada epik başlanğıcın güclənməsi, dekonstruktiv şeir kimi məsələlər də önə çıxarılaraq əsas forma xüsusiyyəti kimi problematik müstəvidə izah olunmuşdur.Bildirilir ki, şairlər dövrün irəli çəkdiyi postmodern ruhuna köklənərək şeirin yalnız üslubu, forma və strukturunu deyil, bütünlükdə ritmi, ahəngi, məzmunu, gerçəklik və onun mənalandırılması, reallığa yanaşma tərzini modifikasiyaya məruz qoydular. Konstruktiv şeir, dekonstruktiv şeir, vizual şeirlər, şeirin qafiyə ilə deyil, epik formada yazılması, hər şeyə kinayəli, ironiyalı münasibət bəsləmək postmodern şeirin ən səciyyəvi görüntüsü olaraq aktual vurğu qazandı. Xüsusilə, şeirdə daha çox təhkiyə elementlərinin yer alması, epik vüsət, təsvirə meyillilik əsas üslubi əlamətlər kimi qabarmağa başlayır. Şairlər həyati müşahidələrini, bəzən hədsiz dərinlərə işləyən şüur oynaqlıqlarını təhkiyə elementlərinin gücü ilə verməyə çalışırlar. Söz oyununa aludəlik, daha çox konstruksiyalı şeirə maraq, dekonstruktiv şeir nümunələrinin meydana çıxması bu dövr poeziyasında əsas forma elementləri kimi təzahür etmişdir. Həmçinin bu proseslər nəticəsində Azərbaycan şeirinə ideya-məzmun, mövzu, problematika cəhətdən bir sıra yeniliklər daxil oldu. Dünyada və ölkədə baş verən qlobal hadisə və proseslər poeziyanın Tanrı, Ölüm, Azadlıq, Müharibə, Şəhidlik mövzusu ilə bağlı yaddaşını təzələdi, onlar yeni rakursdan bədii sözün predmetinə çevrildilər. Özünə, daxilinə varmalar, mənəvi dünya ilə İlahi eşq arasında çabalamalar müasir şeirimizdə dərvişlik və sufilik xəttinin bir neçə şairin yaradıcılığında mərhələ kimi ortaya çıxmasına səbəb oldu. İctimai problemlərdən mənəvi aləmə, ürfani dünyaya qaçış, haqqı, ədaləti dərvişlikdə, tərki-dünyalıqda arama meyili poeziyamızda aparıcı olmasa da, A.Səməd, M.Dəmirçioğlu, E.Başkeçid, M.Köhnəqala, M.Aslanbəyli, M.İlqar, İ.İlyaslı poeziyasında əhəmiyyətli bir istiqamət kimi hiss edildi. Bütövlükdə, müstəqillik dövrünün poeziyasına xas olan xarakterik keyfiyyətlər belə müəyyən edilir: lirizm, emosionallıq, alliterativ ritm, fikri melodiklik, publisistik fon, xəfif istehza, kəskin pafos, hissin-duyğunun psixoloji ladda gərginliyi, müasir lirik xarakterin faciə ilə sonuclanan həyat tərzi, ilahi və mənəvi həqiqətləri axtarış, sosial təzyiqlərdən mənəvi dərdlərə düçar olan insanın ruhi sarsıntıları və s.

müasir dövr poeziyasının başlıca keyfiyyət və mahiyyət göstəriciləridir.

Bu yarımfəslin **“Lirik qəhrəman”** bölümündə müstəqillik dövrü poeziyası üçün səciyyəvi olan lirik “mən”, qəhrəman məsələsi ətraflı şərh olunmuşdur. Qeyd edilmişdir ki, poeziyanın qəhrəmanları dövrlərə müvafiq olaraq müxtəlifliyi ilə seçilmiş, məşhur bir deyimdə ehtiva olunduğu kimi, daha çox zəmanlarına oxşar biçimdə meydana çıxmışlar. Bu təbii prosesdir, zaman ardınca qəhrəmanlarını gətirir, onlar vasitəsilə dünyagörüşünü sərgiləyir, özünün (əgər varsa) yeni düşüncə modelini təqdim eləməyə çalışır. Məsələn, prof. Nizami Cəfərov “Azərbaycanşünaslığa giriş” kitabında ədəbiyyatımızın keçdiyi inkişaf yolunun özünəməxsus cəhətlərini vurğulayarkən, qədim ədəbiyyatı əsasən epos, orta əsrlər dövrünü isə lirika dövrü kimi səciyyələndirir. Dövrlərin əsas, prioritet qəhrəman tipinə gəldikdə isə Nizami Cəfərov birinci dövrün epos qəhrəmanını dünyada qərar tutan, "seçilmiş", qüdrətli Şəxsiyyət, Qəhrəman kimi, ikinci dövrün qəhrəmanını isə "dünyadan təcrid olunaraq yalnız öz daxilində harmoniya yaratmağa çalışan İnsan" timsalında xarakterizə olunduğunu bildirirdi[1]. Orta əsrlər ədəbiyyatında mövcud bütün sufi təmayüllərin amalı “kamil insan” yaratmaq olmuşdur. Onlar əbədi əzab çəkməklə nura qovuşmağı, maddidən müqəddəsliyə keçməyi məqsədə çevirmişdilər və bununla əbədi səadətə qovuşmağı düşünürdülər. Öz nəfsini yenib də Haqqı bulan, daxili “mən”ini əqlü-kəmal ilə zinətləndirib də “Həqq məndədir” söyləyən orta əsr şairinin qəhrəman konsepsiyasının əsasını bu xətt təşkil edirdi. “Kamil insan” yaratmaq... Sonralar əlbəttə ki, ədəbiyyat müxtəlif zamanlar orbitinə daxil olduqca qəhrəmanları da müxtəlif modifikasiyalara məruz qaldı. Nəsiminin kamil insanı Füzulidə “ağlını itirib” məcnuna - kamil aşiqə çevrildi. M.P.Vaqif zamanına qədər dövranını sürən həmin lirik-romantik qəhrəman XIX əsrdə M. F.Axundovun maarifçi qəhrəmanı ilə əvəz olundu. Hətta ədəbiyyatımızın sovet dövrü kimi xarakterizə olunan yetmiş illik bir zaman çərəyində belə bu qəhrəmanlar müxtəlif modifikasiyalarda təqdim olunsalar da cəmiyyətin inkişafinda həlledici qüvvə olaraq irəli çəkilir, zəkanın təntənəsinə inamın tərənnümçüsü olaraq hasilə gəlirdilər. Bu dövr içrə “mərkəzdənqaçma tendensiyası” kimi səciyyələnən 1960-cı illərin qəhrəmanları da individual dünyalarına yönəlik olan diqqəti, insanın ekzistensional mahiyyətinə önəmi etibarilə seçilsələr də, hər halda “ağlı başında olan qəhrəmanlar” kimi təhlilə gəlirlər.

90-cı illərdən başlayaraq poeziyanın lirik qəhrəmanı dəyişir. Bu, təbii ki, baş verən məlum olayların təsiri ilə yaranır, şairlər dövrün ən ağrılı

---

[1]Cəfərov N. Azərbaycanşünaslığa giriş. Bakı: Az Ata M, 2002, s.30.

və qlobal faktı olan müharibə düşüncəsinə, müharibə ağrısına köklənməli olurlar. Müharibənin özü ilə gətirdiyi acıları həyatlarında, mənəvi dünyalarında bu və ya digər formada yaşamış olanlar poeziyanın lirik qəhrəmanına çevrilirlər: milli qəhrəman, şəhid əsgər, şəhid anası, qaçqın; mənfi mənada vətən xaini, satqın siyasətçi, mənəvi-psixoloji mənada özünü və Tanrısını arayan insan və s. Hər bir halda yaranmış lirik qəhrəmanın həyatlarında dövrün və müharibənin meydana çıxardığı ictimai, siyasi, sosial, mənəvi, psixoloji problemlər rol oynayır. Bu qəhrəman qəhrəmanlığı kult səviyyədə təqdim edib onun çoşğun tərənnümçüsünə çevriləndə də, yaxud torpaqların itirilməsi, atəşkəsin elan edilməsi faktından ümidsizləşib mənəvi tənəzzülə uğrayanda da ilk növbədə müharibənin yaratdığı qəhrəmanlar kimi təhlilə gəlirlər, çünki müraciət olunan bütün mövzularda, irəli sürülən bütün ideyalarda müharibə əsas xətt kimi keçir. Şəhid, şəhid anası, döyüşçü, qaçqın və s. kimi lirik qəhrəmanlar müharibə reallığının acısından nəşət tapırlar.

Poeziyada digər lirik qəhrəmanlar sevgi ilə dolu olan, sevgi hissini ehtiva edən qəhrəmanlardır. Daha çox N.Kəsəmənli, M.Yaqub, M.İsmayıl, S.Rüstəmxanlı, R.Behrudinin lirik "mən"ində poetik müstəviyə gətirilən bu qəhrəmanlar sevgini təzə-tər duyğuların qanadında şeirimizə gətirir, çağdaş insanın zaman, cəmiyyət problemləri içində ülvi hissləri ilə baş-başa qalmasına, o hissləri qorumasına meydan açırdı.

1990-cı illərdə poeziyasında modern şeir adı ilə çap olunan şeirlərdə özünü göstərən bəzi çalarlar - mövzudan mövzuya atılma, məzmun olaraq heç bir məna ifadə etməyən sözləri bir-birinin ardınca sıralama, məzmunu boş, mənasız və kompleks ifadə forması bu şeirlərin səciyyəvi xüsusiyyəti kimi qabarmışdı. Postmodernist şeirin qəhrəman tipi isə öz ironik yanaşması, parodik səciyyəsi ilə modernist şeirin qəhrəmanından ayrılır, seçilirdi. İnsanın kamilləşməsini puç və mənasız hesab edən, onun özü-özünü fərdi təkamülə çatdırması düşüncəsinə istehza ilə yanaşan bu cərəyan cahanın əql, zəka ilə bağlı axtarışlar sisteminə inanmırdı. Daha çox oyun effekti yaradan, daha doğrusu oyunlarla işləməyi meyar seçən bu cərəyan "məna yoxluğu", "subyektin" (oxu: müəllifin ölümü!) ölümü kimi fikirlər irəli sürürdü. İntertekstuallıq, parodiyalılıq, ironiya, dekonstruktivizm kimi xüsusiyyətlər postmodernist estetikanın səciyyəvi əlamətləri kimi qabarırdı.

Belə bir halda sual meydana çıxır, postmodernizmdə qəhrəmandan danışmağa dəyərmi? Bildiyimiz ki, lirik qəhrəman hansısa ideyanın daşıyıcısı kimi meydana çıxır, hanısa ruhi vəziyyətin, fikir və həyəcanların ifadəçisi olaraq qəbul edilir. Lakin postmodernist qəhrəman daha çox dağıdıcılığa meyilləndiyindən – yəni, dünyanın nizamsızlığını, xaos

sonucunu, müəllifin, Allahın öldüyünü iqrar etdiyindən antiqəhrəmana çevrilir. Amma nəzərə alaq ki, bu da bir ideyadır, əqlin gücünə (qalib gələcəkmi cahanda kamal?) və eşqin, harmoniyanın təntənəsinə (dünyanı gözəllik xilas edəcək) inamını itimiş ruhun istinadsızlıq məqamından nəşət edilən ideya. Postmodern poeziyanın qəhrəmanı istinadını – inamını itirən, heç bir halda perspektiv görməyən, yaxud görmək istəməyən (belə də demək olar) subyektdir. Bu inamsızlığı doğuran səbəblər fərdi, milli xüsusiyyətlərlə bərabər ümumdünya proseslərinin doğurduğu nəticələrdən də qaynaqlanır. Sənətə münasibətdə pessimizmin meydana çıxma səbəbləri daha çox maarifçilik ideyalarının özünü doğrultmadığı və zəkanın süqutu ilə əlaqədar idi. Ədəbiyyatda əqlin gücünə olan inam sarsıldı. Qlobal tənhalıq insanın özgələşməsini, özündən ayrılmasını, yadlaşmasını şərtləndirmiş oldu. Bu mənada, postmodern dövrünün İnsanı "sosial patologiya" (Dostoyevski) ilə üzləşmiş, tək qalmış, təcrid olunmuş, cəmiyyət tərəfindən təbii bir proseslə uzaqlaşmış, hər şeyə inamını itirmiş insan idi. 2000-ci illərin əvvəllərindən başlayaraq Xanəmirin, M.Köhnəqalanın, Ş.Ağayarın, R.Qaracanın, H.Herisçinin, Z.Əzəmətin S.Pərvanənin, N.Kamalın, Aqşinin və başqa müəlliflərin yazdıqları nümunələrin əksər hissəsində sərgilədikləri mövzulardan asılı olmayaraq ağrılı bir Zaman var. Postmodernist qəhrəman cəmiyyətə və dünyaya aqressiv, sərt dramatizmi, kəskin pafos, ironiyası v.s. ilə seçilir. Bu şeirlər daha çox sosial mənzərələrin təsvirinə açılır, sosial-ictimai təzyiqlərdən mənəvi təbəddülatlara uğramış insanın ovqatını, ruhi sarsıntılarını sərgiləyir.Əlbəttə, milli poeziyada postmodernizmin mütləq varlığından, yaxud onun kamil poetik nümunələrinin yarandığından bəhs etmək mümkün deyil, amma bu da həqiqətdir ki, həmin təmayülün izləri poeziyamızda olmuş, postmodern estetikaya məxsus cəhətlər həm forma və məzmun planında, həm də "mənəvi durum" olaraq subyektin yaşantısında ədəbiyyatımıza gətirilmişdir ki, dissertant bu yarımbölümdə məsələyə geniş aspektdə yanaşmağa çalışmışdır.

Dördüncü fəslin ikinci yarımfəsli "**Poeziyada modern insan, modern dünya konsepsiyası"** adlanır.XX əsrin sonlarında bir-birinin ardınca baş verən məlum olaylar çağdaş insanın dünya, kainat, Tanrı, sevgi, şəhər və ən əsası, özü ilə bağlı təsəvvürlərini modifikasiyaya uğradır. Çağın insanı daha çox böhran ab-havasını yaşamış olduğundan poetik "mən"ini də bu ovqat üstündə kökləməli olur. Lirik qəhrəman içinə dolan bu narahatlığın ağırlığı altında bir də poetik yaşamını sərgiləməyə çaba göstərir. Bu dəfə onun dünya ilə dialoqunun özgə hava-havacatlara səmt aldığını isə sezməmək mümkün olmur. Böyük və faci sarsıntılar qarşısında

ruhunu itirmək təhlükəsi ilə üzləşən şair bu səbəbdən dünyaya, vətənə, sevgiyə münasibətdə özgə düşüncə müstəvilərinə köklənir. Dünya obrazı poeziyada daim faniliyin rəmzi kimi ("Dünya mənim, dünya sənin, dünya heç kimin"- M.Araz) xarakterizə olunsa da, nəhayətində bir də insanın duracaq, yaşayacaq yeri kimi də dərk olunmuşdur. İnsan anlamışdır ki, əslində fani olan dünya yox, o özüdür (biz gəldi-gedərik, sən yaşa dünya – S.Vurğun). Məsələn, "Dünya neçin belədir?..." (1996) -yazan V.Səməd-oğlu daha sonra varlığın daha sirli, matafizik qatlarına enirdi, burada artıq onun dünya ilə deyil, özü ilə mühakiməsi başlayırdı: "Yorma məni/ bu dünyada./ Bu dünya/ ağ dünyadır,/ sinəsi dağ dünyadır,/ qurumuş bağ dünyadır./ Yorma məni, mən ölürəm, /Bu dünya sağ dünyadır..." (1998) Dünya heç də şairin söylədiyi kimi köhnə deyildi, dəyişmişdi və dəyişməklə bahəm insanın baxışlarını da dəyişməyə vadar etmişdi. İnsanın düşüncələrində, həyata yanaşmasında hakim olan biganəlik, yadlaşma sindromunun zəmini dünyanın insana ayırdığı diqqət(sizlik) payından qaynaqlanırdı. Müasir insan sürətlə gedən yeniləşmələri, texnogen sivilizasiyanın pik inkişafını, insanı lazımsız şeyə çevirən hakimiyyət, güc amilini laqeydliklə izləyir, dünya prosesləri fonunda görünməz, eşidilməz olan insan problemlərini hər vəchlə qabartmağa çalışırdı. Bu dövr poeziyasında hakim olan aqressivliyin kökündə də məhz, bu amil dayanırdı. Şeirlərində daim ekzistensial məqamlara, mətləblərə həssas olan şairlər çağın mənzərələri içrə gəzişir, mistik mənalar, simvolik atributlarla dünya iş(lək)lərlərinin hesabatını dini-ilahi qatda arayırdılar. Bəşərin qarışıq mənzərələri önündə çaşqınlığa uğramış insanlığı itirdiyi ilahi bağlara bağlamağa çalışırdılar.

90-cı illərdən başlayaraq poeziyamızda yaranan bu təmayül getdikcə güclənərək daha geniş poetik düşüncə məkanını zəbt eləyir. Vaxtilə poetik fikri məşğul edən kənd, el-oba, doğma ocaq məfhumları öz yerini daha çox şəhər, vətən anlayışlarının təsvirinə verməyə başlayırdı. Bu ifadələr əlbəttə, daim poetik sözün təcəssümünə çevrilmiş, bu və ya digər şəkildə şeirimizin əsas qanadını təmsil etmişlər. Lakin müstəqillik dövrü poeziyasına nəzər saldıqda onun şəhər həyatına həssaslığını, bu mövzunun şeirimizin aparıcı qollarından birinə çevrildiyini görürük. İstər köhnə Bakının əzəli mahiyyətinə, əxlaq prinsirlərinə sadiq qalan yaşlı nəsil, istərsə də paytaxtın gördüklərindən daha çox eşitdiklərinə, oxuduqlarına rəğmən nostaljisinə dalan gənc nəsil eyni çaba ilə onun dünənindən ayrılmaq tendensiyasını tənqid edirlər. S.Rüstəmxanlı "Xarici"yə etiraz edir, B.Sadiq "Hələ də mazuta bulaşmış əllərimi axtarıram, dostum ingilisin ciblərində..." deyir, Salam Sarvan "Belə də ölkə olar, ərazisi neft quyularının dərinliyindən,

məscid minarələrinin hündürlüyünəcən"- deyə heyrət edir, X.Hüseynzadə "bu şəhərin göydələn burnu /havalarda, dostum... /Göz oxşayan parklar da/ yabançı bizə. /Daha ot da kökü üstə birmir / bu şəhərdə. /Xaricdən gətirirlər... /Burası bizə görə deyil, dostum, /Gedək burdan..." təklifini edir, S.Sarvan "Hər şey yenidir şəhərimizdə /Qabaq dişləri çoxdan çürüyən,/ Durmadan çörək dalınca yürüyən /Fəhlələrdən savayı" misralarında kinayə, qəzəb, ittiham tonu ilə düşüncələrini bölüşür. Bir sözlə, Bakının obrazı, onun yadlaşma, yaddaşsızlaşma sindromu şeirimizə gəlməyə başlayır, özü də necə varsa eləcə: sərt neqativləri və mürəkkəbliyi ilə. Bu mövzu poeziyamızın ictimai-sosial məqamlara mövqeyinin güclənməsinə təsir göstərməklə yanaşı, onun axtarışlarına yeni istiqamət aşılamışdır. Bu şeirlərdə əsas, fərqli olan nəsnə şəhər, vətən anlayışlarının dünəndən fərqli şəkildə sərgilənmələridir. Onlarda şəhər, daha geniş kontekstdə vətən anlayışının şeirə gətirilməsi məqamı daha çox üsyan, etiraz xarakteri daşıyır. Hətta üçüncü minilliyin əvvəllərində sərgilənən bu etirazı müstəqillik dönəminin ilk on ilinin poeziyasındakı revanşist ovqatla, ondakı radikal mövqe ilə müqayisə eləmək də olar. Dissertasiyanın bu bölümündə modern dünya, şəhər anlayışları R.Rövşən, R.Behrudi, M.İsmayıl, Qismət və b. şairlərin nümunələri əsasında yeni düşüncənin, yanaşmanın təzahürü olaraq mənalanır. Qeyd olunur ki, bu şeirlərdə yeni dünyanın, yeni insanın və yeni Bakının poetik lövhəsi yaradılır. Bu, sadəcə təsvir etmək, az qala hamımıza tanış olan mənzərələrin, problemlərin, lövhələrin sözdə sərgilənməsi deyil, həm də poeziyanın yeni düşüncə, yeni poetik nəfəs orbitindən sabaha çıxışıdır. Belə bir modifikasiya cəhdi yeni dövr şairlərinin sevgiyə münasibətində də özünü göstərmişdir ki, tədqiqatda bu meyillər dünənin poetik təcrübəsinin nümunələri ilə müqayisəli kontekstdə incələnmişdir.

Təzadlı olan nədir, deyək ki, 70-80-ci illərin lirik qəhrəmanı dünya düzənində tarazlıq pozulanda, xaos astanasında onunla yenidən dialoqa girməyə çıxış yolları axtarır, məntiqli olaraq şərə xeyirlə - ağrılara, məşəqqətlərə sevgi ilə cavab verməyə cəhd edirdi. Ə.Kərimin "qayıt səhmana sal bu kainatı"- misrasını xatırlayırsınızmi?! Şair üçün dünya, kainat özü sevgidən başlayırdı. Sevgilinin tərk edib getdiyi dünyanın özü şair gözündə viran, darmadağın idi. Yaxud N.Kəsəmənlinin "bu dünyanın köhnəlmişdi rəngləri/ sevdim səni, məhəbbətlə boyadım" misraları, yəni dünyanı dəyişmək, rənginə-rəngarəngliyinə qaytarmaq üçün sevmək lazımdır. Bu qədər sadə, tipik Şərq üsulu, Füzuli fəlsəfəsi! Sevmirsənsə, demək ki, dünya səndən keçmir, sevirsənsə demək artıq dünya yaratmış kimisən.

Yeni minilliyin şairinin nəzərlərində isə dominanat qüvvə, başlanğıc məqam dünyanın özü, onun insana davranışı, yaşatdığı taledir. Onu idarə edən dünyaya aldanışları, mənəvi durumudur. İspan filosofu X.O.Qasset yazır: ”Dünyada köklü dəyişikliklərin baş verməsi üçün müəyyən adam tiplərinin yerinə (həm qadınlar, həm də kişilər nəzərdə tutulur) başqa cür adamlar gəlməlidir; Yəni, həyatı duyma və hissetmə qabiliyyəti başqalarından fərqlənən özünəxas insanların peyda olması zəruridir. Nəsli formalaşdıran yalnız onların özlərinə məxsus xüsusiyyətlərlə - psixologiya, zövq və adətlərlə dünyaya gəlirlər. Bunların hamısı birlikdə nəslin simasını təyin edir, onu əvvəlki nəsillərdən fərqləndirir”[1]. Müstəqillik dövrü poeziyasının modern insan konsepsiyası özgələşmiş, vətənindən, şəhərindən “mən”ən uzaqlaşmış, gözündə sevgi ülviyyəti itmiş, dünya axarına qoşulub gedən, heç bir halda müqavimət göstərməyən, taleyi ilə barışan fərdin poetik yaşamını verməyə, onun prozaik həqiqətlərini sərgiləməyə yönəlmişdi.

Dördüncü fəslin üçüncü yarımfəsli “**Poeziyada feminizm çalarları” adlanır.** Müstəqillik dövrü poeziyasında hakim olan təmayüllərdən biri də feminist çalarların qabarması oldu. Bütün dünya səviyyəsində gedən bu proses, yəni cəmiyyətin kişi və qadın kombinasiyasının pozulması qütbləşmə (maskulin və feminen) ilə nəticələnirkən yeni epoxa milli poeziyamız üçün gərəyincə açıq qalan feminen mövqeyi qabartdı. N.Kamal, G.Mövlud, S.Pərvanə, S.Çılğın, A.Əlizadə, X.Hüseynzadə, E.Eyvazlı kimi xanım yazarların şeirlərində kişi obrazının deformasiyasının başlıca səbəbi poeziyada qadın başlanğıcını gücləndirmək ehtirasından, feminist mövqedən - daha çox azad sevgi, azad düşüncə, bir sözlə, azad insan anlamından irəli gəlirdi. Qadın milli mentalitet standartlarından imtina edır, köhnə dəyərlərin məqbul saydığı, ənənəvi əxlaqla motivləşən cəmiyyət qanunlarına üsyan edirdi. Daha çox qadın dünyasının, qadın yaşamının ekzistensiyasını yaratmaq, naturfəlsəfi məqamlara diqqət yönəltməklə qadının mənəvi sarsıntı və yaşantısı ictimai-psixoloji müstəviyə çıxardan bu mətnlərdə fərqli olan əsas məqam mövzunun qadın nəzərlərində yeni modifikasiyalara uğraması deyil, ümumən sevən, sevilən, incə, zərif kimi gördüyümüz və tanıdığımız Azərbaycan qadınının revanşist ovqat sərgiləyən siması oldu. O artıq zəriflik və gücsüzlük anlayışına üsyan edir, həmcinslərinə mütilik əleyhinə inqilabi ovqat, güc və möhkəmlik hissi aşılayır. Amma ictimai-psixoloji-mənəvi gündəm basqısına tabe tutub şik-

---

[1]Ортега-и-Гассет Х. Дегуманизация искуства. М.: Изд-во “Радуга” 1991, с.11.

ayət etdiyi məqamları cəmiyyət psixolojisində arayan bu mətnlərdə güc və möhkəmlik ehtirası sosial-ictimai təzyiqlərdən mənəvi sarsıntılara uğraya biləcək qadına cəmiyyətdə yaşamağa hazır olmaq naminə aşılanırdı. Dissertasiyada bir çox şairlərin poetik mətnləri əsasında feminen çalarlara diqqət yönəldilir, bu çalarlar yeni dövrün özü ilə gətirdiyi düşüncə konteksti kimi xarakterizə olunurlar.

**Nəticə**dətədqiqatın əsas elmi yekunlarının müxtəsər xülasəsi təqdim olunur, milli müstəqillik illərinin şeirinin əsas özəlliklərinə yekun qiymət verilir.Bu dövrün poeziyasının əsas keyfiyyət və mahiyyət göstəriciləri elmi-nəzəri müddəalarla şərh olunur. Beləliklə, "Müstəqillik dövrü poeziyası müasir ədəbi təmayüllər kontekstində" mövzusu üzrə aparılan tədqiqlər belə qənaətlərə gəlməyə əsas verir ki, milli müstəqillik dönəmi xalqımızın tarixi taleyində xüsusi rol oynadığı kimi, ədəbiyyatın, sənətin də dərkində, onun tam yeni əsaslar üzərində pərvəriş tapmasında əlahiddə əhəmiyyət kəsb edən zaman vahidi kimi səciyyələnir. Bu dövrdə poeziya bir tərəfdən müstəqillik dönəminin özü ilə gətirdiyi söz azadlığı hissinin, digər tərəfdən üzləşdiyi Qarabağ probleminin, müharibə acılarının ovqatında qələm işlətməli oldu. Postsovet məkanı olaraq,  Azərbaycan da keçid dövrünün problemlərinə məruz qaldı, digər tərəfdən dünyaya çıxış prosesi stimullaşdığından qlobal hadisə və proseslərin milli düşüncəyə axını daha çox gücləndi. Bu axın nəticəsində poeziyanın cəmiyyətlə əlaqəsi gücləndi, o bütünlükdə özünü mövcud prosesə köklədi, tarixi prosesləri, ictimai şüurda baş verən təbəddülatları daha operativ əks etdirməyə çalışdı. Araşdırılan illərin poeziyasına daxil olan lirik "mən" ilk növbədə dünya proseslərinin təzahürünü daşıyan qəhrəman kimi xarakterikdir. Amma bu təzahür 60-cı illərin toplumsal yönü ilə fərqlənən şeirindən kəskin fərqlənən səciyyə daşıyır. 60-cı illər şeiri "dünya" obrazının, onda baş verən hadisələrin şeirdə, bədii təfəkkürdə birbaşa iştirakına, nominal səciyyəsinə yönəlir, hətta bəzi şeirlərdə hakim olmuş individual-fərdi yanaşmalarda belə dünya ilə birləşmək, qovuşmaq çaları özünü göstərirdi. 90-cı illər poeziyasında isə "dünya"nın özü deyil, onun işləkləri, insan mənəviyyatına vurduğu ziyanlar, şəxsiyyəti iflasa uyradan məqamları – ağrıdan sonrakı halı təhlilə çəkilir. Bəzən dünyanın adı belə çəkilməyən şeirlərdə belə lirik "mən"in küskünlüyünün, içindəki çöküş ovqatının bəşər miqyasında baş vermiş proseslərdən qaynaqlandığı məlum olurdu.

Bu dövrdə bir çox cərəyanların, dünya ədəbi-fəlsəfi təmayüllərinin poeziyamıza axını gücləndi. Dissertasiya belə qənaətə gəlməyə əsas verir ki, ədəbi təmayüllər fikrin, düşüncənin kəskin, qarışıq, dramatik zamanlarında meydana gəlmiş, hakim ideologiyaya müxalif olaraq pərvəriş

tapmışlar. Orta əsrlər Şərq dünyasında, ümummüsəlman mədəniyyətində fərqli estetik-fəlsəfi fikir cərəyanlarının meydana gəlməsi, islami dəyərlərin müxtəlif modifikasiyalara məruz qalması dövrə etiraz əlamətin göstəricisi idilər. Eləcə də dünya ədəbiyyatlarında olan bir sıra cərəyanlar (məsələn, ekspressionizm, dadaizm, kubizm, fovistlər, romantizm və s.) bir tərəfdən, maarifçilik ideyalarının özünü doğrultmadığı və zəkanın süqutu ilə əlaqədar meydana çıxmışdısa, digər tərəfdən klassik qəlibləri dağıtmaq ehtiyacından, müəyyən iqtisadi, siyasi-ictimai şərtlərdən, insanın daxili narahatlığından, özünü azad ifadə etmək, dünyanı dəyişmək arzusundan, keçmişə, ənənəçiliyə qarşı revanşist ovqatdan hasilə gəlmiş, dövrün siyasi durumuna reaksiyanın ifadəsi olaraq yaranmışlar. Dissertasiyada əbədi təmayüllərin meydana çıxmasının digər bir səbəbi kimi həmçinin, azad fikrin doğuluşu amili də əsas səbəb kimi mənalanır ki, 90-cı illər bu baxımdan təmayüllərin pərvərişinə imkan vermək baxımından xüsusi önəm kəsb edir.

Dünya ədəbi cərəyanlarının milli poeziyamızda əks olunması, poetik təqdimi üzərində tədqiqlər bu inikasın üç səviyyəsindən, üç mərhələsindən danışmağa əsas verir. Bunun birinci qatı XX əsrin əvvəllərinə gedib çıxır. H.Cavid, M.Hadi, Ə.Cavad, Ə.Hüseynzadə, M.Müşfiq, S.Vurğun şeirində dünya ədəbi cərəyanlarının təsiri danılmazdır, şəksizdir. İkinci mərhələ ötən əsrin 60-80-ci illərindən başlayaraq gəlişməyə başlayır. Bu dövrdə R.Rza, Ə.Kərim, Ə.Salahzadə, İ.İsmayılzadə və başqa şairlərimizin şeirlərindəki yeni həfəs, yeni üslub və ifadə tərzi, predmeti mənalandırma rakursunun ardınca, V.Səmədoğlu, V.B.Odər, R.Rövşən poeziyasının dekadans - çöküş ritminə köklənməli oluruq. Estetik siqlət, poetik miqyas baxımından bu şairlərin mətnləri öz mərhələ xüsusiyyətlərini yarada bilmişlər. Milli müstəqilliyi qazandığımız 1990-cı illərdən başlayaraq isə poeziya ədəbi dünya cərəyanları ilə təmasın tam yeni mərhələsinə daxil olur.Bəlkə də ard-arda yaşadığı kataklik, fəci proseslərin bolluğundan 90-cı illər poeziyasında fəlsəfi dərinlik artmışdır. Belə bir yenilik cəhdləri yalnız şairlər tərəfindən edilməklə bitməyib, həmçinin şeirə yanaşmada, onun təhlilinə münasibətdə də özünü göstərmişdi. Belə ki, dünya elminin qabaqcıl meyilləri, elmi-nəzəri fikri ilə silahlanan tənqidçilər sovet dövrünün şablon, stereotip təhlil qaydalarını inkar edərək şeir mətninə münasibətdə yeni nəzəriyyələr, ideya-estetik meyarlar tətbiq etməyə çalışırdılar.

Tədqiq edilən illərin şeirində pafos, çılğın intonasiya, çağırış əhval-ruhiyyəsini susqunluq əvəz etməyə başladı. Şairlər daha çox içlərinə yönəlməyə, daxili aləmlərinə varmağa üstünlük verdilər.Bununla belə araşdırılan dövrdə müharibə mövzusunun daim diqqətdə saxlanması,

dünyanın Qarabağ dərdinə etinasızlığına, laqeydliyinə şairlərin etirazı, itirilən torpaqlara, üzləşdiyimiz milli faciələrimizə poeziyanın münasibəti baxımından B.Vahabzadə, Z.Yaqub, Qabil, X.R.Ulutürk, F.Mehdi, F. Sadıq, H.Kürdoğlu, F.Qoca, S.Rüstəmxanlı, F.Məmmədli, Ə.Quluzadə və başqalarının yaradıcılığı əsas rol oynamışdır. Bu dövr poeziyasında qabaran başlıca çalar şeirimizin çöküş ritminə, dekadans ovqatına köklənməsi oldu. Dissertasiyada bu məqam yalnız poetik düşüncə kontekstindən deyil, bütün mədəniyyət sferasının hüdudları çevrəsində təhlil olunarkən onun rəssamlıq, teatr sahəsində də zamanın özü ilə gətirdiyi başlıca təmayül olduğu üzə çıxır. Poeziyamızda bu təmayülün əlamətləri daha çox V.Səmədoğlu, R.Rövşən, V.B.Odər şeirində sərgilənsə də, 90-cı illər poeziyasında dekadansın təzahürlərinin motivasiyası başqa idi. Müstəqillik dövrü poeziyasındakı çöküşün başlıca səbəbi şairlərin keçib gəldikləri reallıqlar, müharibə faktı, ondan irəli gələn "itirilən gənclik" acısı oldu ki, bu da sonucda şairlərin içindəki böhranı dərinləşdirdi.Həmçinin bu proseslər nəticəsində Azərbaycan şeirinə ideya-məzmun, mövzu, problematika cəhətdən bir sıra yeniliklər daxil oldu. Dünyada və ölkədə baş verən qlobal hadisə və proseslər poeziyanın Tanrı, Ölüm, Azadlıq, Müharibə, Şəhidlik mövzusu ilə bağlı yaddaşını təzələdi, onlar yeni rakursdan bədii sözün predmetinə çevrildilər.

Araşdırdırılan illər modernist cərəyanların gəlişməyə başladığı zaman vahidi kimi səciyyələnir. Poeziyada modern insanı şeirə gətirmək, dünya kontekstinə, havasına köklənmək cəhdləri 60-cı illərdən meydana çıxsa da modernist forma axtarışlarının istər qrafik, istər struktur, istərsə də obrazlar sistemi baxımından milli ədəbiyyatımızda təzahürü 70-80-ci illərin sonlarından gerçəkləşir. Daha çox fərdin ağrılarını, çöküşünü, yaşantılarını təcəssüm etdirmək mənasında. Amma bu hər şairdə nə qədər alınır, milli ölçülərin izi, təcrübəsi burda nə qədərdir? Dissertasiyada müxtəlif nümunələr əsasında bu sualın cavabı, elmi izahı verilir, bir sıra modernist cərəyanlara (simvolizm, impressionizm, sürrealizm) meyillər, kanonik şeir təsəvvürlərini qıraraq fərqli duyğular vasitəsilə yeni zamanın düşüncələrinə, durumuna varmaq cəhdləri yeni dövr poeziyasının əsas təmayülü kimi qabarıqlaşır.

Milli müstəqillik illəri özü ilə poeziyaya postmodern dalğanı da gətirmiş, gəlişdirmiş oldu. Amma anlayışın səhti qavramı, onun daha çox xaos tipizasiyası ilə - keçmiş ədəbi-mənəvi dəyərlərdən imtina, bədii irsə ironik yanaşma, ifrat aqressivlik, bütləri dağıtmaq amacından zəminlənən klassik və sovet dövrü yazarlarının ədəbi irsini bir qələmlə silib atmaq istəyi və s., və i. – anlayışı anarxiya səviyyədə qavramaq probleminin

nəticələri idi. Bu təmayülün təsiri olaraq milli poeziyada bəzi anlayışlara – vətən, şəhər, Tanrı mövzularına münasibət dəyişdi, daha çox epotaj səciyyə, mətni dekonstruksiyaya uğratma cəhdləri, ironik modus önə keçdi. Rasim Qaraca, Murad Köhnəqala, Zahir Əzəmət, Aqşin, Şərif Ağayar, Nərmin Kamal, Sevinc Pərvanə, Günel Mövlud və başqa şairlərin şeirlərində bu cərəyanın təsiri ilə milli poeziyamızın forma və məzmun qatı başqa şəkil almağa başladı, eksperiment səciyyədə də olsa, postmodernizmin ilkin təzahürləri yarandı. Şairlər dövrün irəli çəkdiyi postmodern ruhuna köklənərək şeirin yalnız üslubu, forma və strukturunu deyil, bütünlükdə ritmi, ahəngi, məzmunu, gerçəklik və onun mənalandırılması, reallığa yanaşma tərzini modifikasiyaya məruz qoydular. Konstruktiv şeir, dekonstruktiv şeir, vizual şeirlər, şeirin qafiyə ilə deyil, epik formada yazılması, hər şeyə kinayəli, ironiyalı münasibət bəsləmək postmodern şeirin ən səciyyəvi görüntüsü olaraq aktual vurğu qazandı. Xüsusilə, şeirdə daha çox təhkiyə elementlərinin yer alması, epik vüsət, təsvirə meyillilik əsas üslubi əlamətlər kimi qabarmağa başlayır. Şairlər həyati müşahidələrini, bəzən hədsiz dərinlərə işləyən şüur oynaqlıqlarını təhkiyə elementlərinin gücü ilə verməyə çalışırlar. Söz oyununa aludəlik, daha çox konstruksiyalı şeirə maraq, dekonstruktiv şeir nümunələrinin meydana çıxması bu dövr poeziyasında əsas forma elementləri kimi təzahür etmişdir.

Bütün yenilik cəhdlərinə, Qərb cərəyanlarının poeziyamızda "sərt yürüşünə" baxmayaraq, çağdaş şeirdə "milli izm" bütün qüvvəsi ilə klassik poeziya ənənələrinin təzahürlərini yaşatmağa davam edir. M.Yaqub, M.İsmayıl, M.Günər, F.Qoca, F.Sadıq, Ç.Əlioğlu, V.Bəhmənlinin yaradıcılığında milli şeir formalarının (qoşma, gəraylı) gözəl nümunələri yaradılır. Bu dövr poeziyasından Qarabağ savaşı başlıca xətt kimi keçsə də, digər – Tanrı, Vətən, Sevgi, Təbiət, Təbriz və s. mövzuların da şair düşüncəsinin predmetinə çevrildiyini görmək mümkün olur.

Müstəqillik dövrü poeziyasında hakim olan təmayüllərdən biri də feminist çalarların qabarması oldu. Hər növ qatlar - ictimai, mənəvi-mədəni, psixoloji durum mürəkkəbliyi arasında azadlığını əldən verməyən, revanşist ovqata sahib qadın obrazları sərgiləyən şeir nümunələri dissertasiyada təhlilə cəlb edilir, onların dünəndən fərqli biçimdə ehtiva olunmuş özəl xüsusiyyətləri elmi tədqiqatın predmetinə çevrilir.

Araşdırmada vurğulanır ki, həm ideya-məzmun, həm də poetik tapıntılar baxımından çağdaş şeirimizin inkişaf mərhələsi kimi dəyərləndirilə bilən müstəqillik dövrü Azərbaycan poeziyasını ədəbi təmayüllər kontekstindən dəyərləndirmək çoxqatlı və mürəkkəb prosesdir.

Yaşadığımız ilk iki onillikdə onun funksionallığını stimullaşdıran amillər sırasında gərgin üslubi axtarışlar, hələ yalnız bədii-estetik təcrübə xarakteri daşıyan şeir mətnləri, habelə ənənəvi forma və məzmunda ifadə olunan poeziya nümunələri yarandısa da, gələcək perspektiv keçmişin dərinliyi və gələcəyin yüksəkliyinə yönələn poetik baxışın vüsəti ilə hasil olacaqdır.

**Dissertasiyanın əsas mövzusu və müddəaları müəllifin aşağıdakı kitab, məqalə və tezislərində öz əksini tapmışdır:**


1. Azərbaycan ədəbi tənqidi milli müstəqillik illərində. Bakı: MBM nəşriyyatı, 2009, 160 s.
2. Yeni təfəkkür və ədəbi tənqid. Bakı: MBM nəşriyyatı, 2013, 280 s.
3. Çağdaş poeziya və ədəbi təmayüllər. Bakı: Elm və təhsil, 2015, 312 s.
4. İçi şəkil dolu şeirlərm // “Azərbaycan” jurnalı, 2003, №4, s.40-45.
5. 2009-cu ilin poeziyası // “Azərbaycan” jurnalı, 2010, №8, s.176-186.
6. “Yeni şeir” sindromu və estetik dəyərlər // AMEA Xəbərləri. Humanitar elmlər seriyası, 2010, №3-4, s.66-82.
7. Çağdaş Azərbaycan şeiri içrə gəzişmələr // “Azərbaycan” jurnalı, 2012, №11, s.156-173.
8. Hüseyn Cavid lirikasında dekadans / “Hüseyn Cavid yaradıcılığı çağdaş təfəkkür işığında” (H.Cavid-130) Beynəlxalq Elmi Konfransın materialları (22-24 oktyabr). Bakı, Proqres, 2012, s.263-270.
9. XX əsrin əvvəlləri Azərbaycan poeziyasında ədəbi təmayüllər: zamana baxış kontekstində / Ümummilli lider Heydər Əliyevin anadan olmasının 90 illiyinə həsr olunmuş Gənc tədqiqatçıların I Beynəlxalq elmi konfransının materialları (26-27 aprel), Bakı, Qafqaz Universiteti, 2013, s. 423-424
10. Orta çağ Azərbaycan ədəbiyyatının klassik fəlsəfi poeziyası. “Azərbaycan Şərqşünaslıq elminin inkişaf yolları” / Akademik Vasim Məmmədəliyevin 70 illiyinə həsr olunmuş Beynəlxalq Elmi Konfransın materialları (27-28 iyun). Bakı, 2013, s. 178-181.
11. Heydər Əliyev və Azərbaycan ədəbiyyatı // “Azərbaycan” jurnalı, 2012, №5, s. 109-114
12. Vaqif Bəhmənli poeziyasında “yeni şeir” və zaman imkanları // “Azərbaycan” jurnalı, 2013, №7, s. 177-183.
13. Postmodernist poeziyada bədii fiqur // Ədəbiyyat Məcmuəsi. Nizami adına Ədəbiyyat İnstitutunun əsərləri, 2014, №1, s.202-209.
14. Çağdaş Azərbaycan poeziyasında feminizm // AMEA Xəbərləri. Humanitar elmlər seriyası, 2014, №1, s.105-113.

15.Poeziyada yeni təmayüllərin formalaşmasının ədəb-tarixi şərtləri. Poetika.izm jurnalı. Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun elmi əsərləri, 2014, №1, s.90-100.
16. Axınlar, təmayüllər // "Azərbaycan" jurnalı, 2014, №4, s.168-176.
17.Müstəqillik dövrü Azərbaycan poeziyası / Azərbaycanşünaslığın aktual problemləri mövzusunda Ümummilli lider Heydər Əliyevin anadan olmasının 91 ildönümünə həsr olunmuş V Beynəlxalq elmi konfransın materialları (5-7 may). Bakı, Azərbaycan, 2014, s.44-46.
18.Çağdaş Azərbaycan poeziyasında "erməni məsələsi" / Müasir Azərbaycan və Türkiyə ədəbiyyatında "erməni məsələsi" Beynəlxalq Elmi konfransın materialları (25-26 aprel). Bakı, 2014, s. 167-180.
19.Postmodernizm – "Yeni dünya" modelinin təzahürü kimi / XXI əsr mədəni paradiqması multimədəni aspektdə Respublika Elmi Konfransının materialları (25-26 noyabr). Bakı, 2014, s.18-20.
20. "Yeni şeir"lə bağlı novator konsepsiyaların müəyyənləşməsi / "Şərq xalqları ədəbiyyatı: ənənə və müasirlik". Görkəmli şərqşünas alim, filologiya elmləri doktoru, professor Aida İmanquliyevanın 75 illiyinə həsr olunmuş Beynəlxalq Elmi Konfransın materialları (10-11 oktyabr). Bakı:Elm, 2014, s. 315-320.
21.Orta çağ Azərbaycan klassik fəlsəfi poeziyasında sufizm / "Çağımızdan görünən orta əsrlər". AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi, professor A.Rüstəmovaya həsr olunmuş II Beynəlxalq Elmi Konfransın materialları (15 dekabr 2014). Bakı, 2014, s. 460-467.
22.XX əsrin əvvəllərində Azərbaycan poeziyası dünya mədəniyyəti kontekstində / "Türk edebiyatları ve müzik sanatının kökeni ve evrimi" uluslararası toplantı malzemelerinde mövzusunda konfransının materialları. (23-24 Eylül, 2014, Kazan şehri) Kazan, 2014, s. 34-38
23.Müasir poeziyada çöküş fəlsəfəsi // "Azərbaycan" jurnalı, 2015, №3, s.56-76.
24.Müstəqillik dövrü Azərbaycan poeziyasında axtarış və perspektivlərin bəzi yönləri // AMEA Xəbərləri. Humanitar Elmlər Seriyası, 2015, №1, s.94-101.
25.Cavid yaradıcılığı: zamana baxış kontekstində // Hüseyn Cavid. Vətənə qayıdış (məqalələr toplusu). Bakı: Gənclik, 2015. s. 38-47.
26. Çağdaş Azərbaycan postmodern şeirində Tanrıya münasibət // Ədəbiyyat Məcmuəsi. Nizami adına Ədəbiyyat İnstitutunun əsərləri, XXVI cild. Bakı, 2015, səh. 246-256.
27. 2015-ci ilin poema yaradıcılığı: üzü aydınlığa // "Azərbaycan" jurnalı, 2015, №7, s.38-52.

28.“Bir kəs ki, onun qibləsi yalnız vətən oldu” (B.Vahabzadənin poeziyası haqqında) // “Azərbaycan” jurnalı, 2016, №3, s. 180-187.
29.Культ нового мышления – модернизм / II Международная мультидисциплинарная конференция "Актуальные проблемы науки XXI века" 19 сентября 2015 года. Сборник со статьями (II часть. уровень стандарта, академический уровень) . г.Москва, - С-П: Международная исследовательская организация «Cognitio», 2015. – 164 с., ст. 56-60.
30.Поэзия и литературные течения: в контексте нового времени / VIIМеждународная научно-практическая конференция “Литературный текст XXI веков: проблемы поэтики”. Сборник статей (III часть). г.Москва, - С-П: Международная исследовательская организация «Литературный текст», 2015. 190 с., ст. 101-107.
31.Художественные течения в современной Азербайджанском поэзии. (Вестник Ленинградского государственного университета имени А. С. Пушкина). 2014, №1, s. 232-239.
32.The Notıon Of “Decadence”, Forms Of It’s Manıfestatıon In Lıterarture. ISSN: 0304-3479 Indexed by Thomson & Reuters Emerging Citation. The Journal of Cultural Heritage. Volume 91, 2017, p. 57-65.

**Акимова Эльнара Сейдулла кызы**

**Азербайджанская поэзия периода независимости в контексте современных литературных тенденций**

## РЕЗЮМЕ

В научном исследовании азербайджанская поэзия периода независимости разбирается в контексте современных литературных тенденций. Диссертация состоит из введения, четырех глав, заключения и списка использованной литературы.

Первая глава исследования названа **«Литературные тенденции в азербайджанской поэзии:становление и развитие»**. В этой главе говорится о назидательной поэзии, занимавшей главенствующие позиции в эпоху Средневековья о философско-романтической поэзии начала XX столетия, специфической поэзии советского периода и «белых» стихах получивших широкое распространение в 60-х годах XX века.

Вторая глава диссертации названа **«Восприятие мировых литературных тенденций в современной азербайджанской поэзии»**. В этой главе подробно разбирается отражение мировых литературных направлений в современной азербайджанской поэзии, все более усиливающиеся интонации декадентства, склонность к модернистским литературным течениям, способы проявления в поэзии элементов постмодернизма и правды «новой жизни».

В третьей главе под названием **«Современное стихотворение и «национальное изм»** подчеркивается новое мышление и новые художественно-эстетические ценности, заостряется внимание на новых подходах, новых взглядах на традиционные темы национальной поэзии.

Четвертая глава носит название **«Идейно-художественные особенности современной поэзии»**. В этой главе говорится о многообразии творческих поисков новых форм, содержания и идейно-художественных форм, затрагивается проблема нового, лирического героя, а также вопрос художественных фигур в постмодернистской поэзии. Указывается, что в названный период такие особенности, как конструктивистское и деконструктивистское стихотворение, визуальное стихотворение, написание стихов не в рифмованной а в эпической форме, ироническое отношение к

реальности является характерной особенностью именно постмодернистской литературы.

Подчеркивается также, что предпочтение именно повествовательным элементам, эпический размах и склонность к описательности здесь со всей наглядностью выступают в качестве основных стилистических признаков. Т.е. все жизненные наблюдения, «игры с подсознанием» (подчас чрезмерно глубокие), поэты стараются представить посредством повествовательных элементов. Увлеченность «словесной игрой», интерес к конструктивистским стихотворениям, появление «деконструктивистских» стихотворений проявляются как основные элементы поэтической формы в современной поэзии. Отмечается также, что зарождение и развитие феминистской поэзии также является одной из тенденций современной поэзии.

В **Заключении** подводятся итоги исследования, дается оценка основным особенностям азербайджанской поэзии периода независимости. Все особенности поэзии названного периода разбираются с научно-теоретических позиций.

**Akimova Elnare Seydulla gizi**

## Azerbaijani poetry of independence period in context of modern literary tendencies


### SUMMARY

In this investigation the Azerbaijani poetry of independence period is studied in context of modern literary tendencies. Dissertastion consists of introduction, four chapters, conclusion and list of literature.

The first chapter is named **"Literary tendencies in Azerbaijani poetry, their establishment and development."** In this chapter the "wisdom" verses, which were in leading position in midcentury poetry , the phylosophical-romantic poetry of first half of XX century, specific poetry of soviet period, developed in quite new form and the blank verses, popular in 60th of XX century are spoken about.

Second chapter is named **"The cognition of world literary tendencies in modern poetry"**. In this chapter the reflection of world literary trends in national Azerbaijani literature, the strengthening of decadence intonations in our national poetry, the means of "new world truth" and postmodernist features embodiment is analysed here in details.

The third chapter is named **"Modern verses and "national – ism"**. Here the actuality of new cost of mind and artistic-aesthetic values, the problem of traditional themes in national poetry and new aproach to them is emphasized.

The fourth chapter is named **"Idea-artistic peculiarities of modern Azerbaijani poetry"**. In this chapter the search of new forms and idea-artistic varieties is spoken about. The problem of new lyrical hero and problem of artistic, poetic figures in postmodernist literature is studied also. The author points out, that nowadays the verses are written both in constructive and deconstructive form, new visual verses and verses without rhyme are created. All these features, including epic form of work, allusions, ironic approach to all aspects of life and creativity are main characteristic ones for all postmodernist literature and they are staying as most actual ones in present time literature.

It's also emphasized particularly, that in such works the elements of narration are used more often and epic scope, the desire of descriptive manner are quite evident. The poets try to present the

life observations by means of narrative elements and "play of mind" , subconscious process, and sometimes delve in them too deeply. The partiality for word play, interest in constructive verses, engendering of "deconstructive" verses is displayed as main elements in poetry of that time. One of main tendencies formed in Azerbaijani poetry of independence period was the engendering of feministic intonations here. That tendency also looks as one of leading ones, it's is emphasized in this chapter as very important aspect.

In **"Conclusion"** the main items of scientific of work are presented in generalized form, the poetry of national independence period, it's main peculiarities are appreciated. The main signs of modern poetry, it's peculiarities and sense matter are commented.

Kağız formatı: 60/84 16/1
Sayı: 100

**AMEA-nın mətbəəsində çap olunmuşdur**

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ЛИТЕРАТУРЫ имени НИЗАМИ ГЯНДЖАВИ**

*На правах рукописи*

**ЭЛЬНАРА СЕЙДУЛЛА kызы АКИМОВА**

# АЗЕРБАЙДЖАНСКАЯ ПОЭЗИЯ ПЕРИОДА НЕЗАВИСИМОСТИ В КОНТЕКСТЕ СОВРЕМЕННЫХ ЛИТЕРАТУРНЫХ ТЕНДЕНЦИЙ

**5716.01 – Азербайджанская литература**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание научной степени**
**доктора наук по филологии**

**БАКУ–2017**